# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Aprel 2023 (28)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.
**Texniki redaktor:** Tuncay Şəhrili.
**Məsul katib:** Araz Şəhrili.
**Yaradıcılıq məsələləri üzrə menecer:** **Şəlalə CAMAL.**
**İctimaiyyətlə əlaqələr üzrə menecer:** **Nəzakət KƏRİMOVA-ƏHMƏDOVA**

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Təranə Məmməd, Aydın Xan Əbilov, Seymur Sönməz (Paşayev), Kamal Camalov, Leyli Novruzova, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Ülvi Aydın, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağamməd, Əsgər Ordubadlı, Alik Dənizsevər , Rafiq Hümmət (Gürcüstan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç). Caroline Laurent Turunc (Fransa)

# BU SAYIMIZDA

Baş redaktordan ........................................................... 3
Yazarlar jurnalı ........................................................... 4
İsa Həbibbəyli. Rəşad Məcid necə varsa. ............................ 5
Sərvanə Dağtumas. **Detektiv ədəbiyyatı** ... ...................... 25
Mövlud Ağammədin yeni şeirləri ....................................... 34
Zaur Ustac. Əliş və Anna. (poema) .................................... 39
Murad Məmmədov. "Qadın " və digər şeirlər.. ................. 88
"Yazarlar" foto qalereya (fotolar)...................................... 103
"Əliş Kərəmli" Sehran Allahverdi. (rəsm) .......................... 105

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan "Yazarlar"ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***"Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək"*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan "Yazarlar" kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **BİTİK.AZ saytından sifariş yolu ilə əldə edə bilərsiniz. Eyni zamanda Wahtsapp:** (+994) 70-390-39-93

"YAZARLAR, ANCAQ YAZARLAR…" © YAZARLAR



**Zaur USTAC**

## BAŞ REDAKTORDAN

Salam olsun, dəyərli oxucular!

Jurnalımızın Aprel 2023-cü il (28-ci sayı) ilə görüşünüzə gəlmişik.

Daimi oxucularımza yaxşı məlumdur ki, biz "Yazarlar" olaraq həmişə zamanın nəbzini tutmağa, ədalətli olmağa çalşmışıq. Bu yolda durmadan irəliyə doğru addımladıqca ortaya çıxan problemləri də birlikdə həll edirik. Bizim amalımız birdir və məramnaməmizdə qeyd olunan məqsədi daim uca tutmuşuq, tuturuq, tutacağıq! Hamınıza xoş yaz əhval-ruhiyyəsi arzulayırıq. Bu sayda yer alan yazarlarımız artıq sizə məlum olduğuna görə təkrarçılığa yol verməyə lüzum görmədim. 2023-cü ildə yaz təravətli, güz qoxulu dördüncü buraxılışımızı diqqətinizə təqdim edirik. Buyurun, tanış olun.



## "YAZARLAR" JURNALI

### "Yazarlar" jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən yazarlar "Müstəqil Yazarlar Konfederasıyası" adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Heç bir maddi və ticari məqsədi yoxdur. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar "Yazarlar dərnəyi" adlı ikinci alt qurumun vasitəsi ilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət "Yaradıcılıq Komisiyyası" adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur.
- "Yazarlar" jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.



İsa HƏBİBBƏYLİ

## RƏŞAD MƏCİD NECƏ VARSA

Bədii yaradıcılığın bir neçə istiqamətində uğurla fəaliyyət göstərən Rəşad Məcid müstəqillik dövrü Azərbaycan ədəbiyyatı və mətbuatının əsas yaradıcılarındandır.
Rəşad Məcidin lirikası dərin lirizmlə üzvi əlaqə əsasında yaranan əhəmiyyətli sənət hadisəsidir. Rəşad Məcidin 1993-cü ildə ilk şeirlər toplusu kimi nəşr edilən onun yaradıcılığı “vaxt var ikən şeir də yazım” – məntiqindən deyil, yazmaya bilməmək zərurətindən meydana çıxmış xalis lirika nümunələridir. “Hələ ki vaxt var” şeirlər kitabına yazdığı “On il əvvəlin toplusu” adlı müqəddimədə etiraf etməli olduğu kimi, artıq səksəninci illərdə, yəni 18-21 yaşlarında özünü, gələcək həyatını şeirdən, ədəbiyyatdan uzaqda düşünməyin mümkünsüzlüyünü dərindən hiss etmişdir. “Hələ ki vaxt var” kitabından görünür ki, Rəşad Məcid üçün şeir “bir dolu ürəyin püskürmə çağı”dır, “dikəlib asfaltı deşən bənövşə”dir, “sinədə boğmaq mümkün olmayan bir qəfil hönkürtü” kimi təbii proseslərin nəticəsində yaranmış bədii düşüncənin ifadəsidir.
Rəşad Məcidin lirikası içərisində olduğu cəmiyyətlə və doğma

təbiətlə birgə nəfəs alan bir qəlbin həyata şairanə şəkildə vurğunluğudur. Onun şeirlərində dünya da, Vətən də, ictimai motivlər də, milli duyğular da, sevgi də, təbiət də, tale də özünün təbii şeiriyyətini təqdim edir. Mövzusundan asılı olmayaraq, Rəşad Məcidin hər misrasının "göyərçin qanadı" kimi bənzərsiz obrazlı görkəmi, bayatılarda olduğu kimi hər bəndin lirik-fəlsəfi mənası vardır. Rəşad Məcidin şeirləri həyata şairanə baxışın özünəməxsus bədii ifadəsidir:

Leysanların, tufanların inadı sınır,
Gün işığı parıldayır qaya döşündə.
Şəfəqləri qucağına sıxıb qızınır,
Gülümsəyir damlaların düzülüşündə.

Rəşad Məcidin şeirləri həyat və insan haqqında lirik düşüncələrdən yoğrulmuş daxili poetik monoloqdur. Bu şeirlər dünyadan, həyatdan və insandan danışan işıqlı və obrazlı düşüncələrdən yoğrulmuşdur. Rəşad Məcid şeirlərində bütün hallarda, o cümlədən, lirik duyğularını ictimailəşdirəndə də obrazlı düşüncənin təbiiliyini və səmimiyyətini, lirizmi qoruyub saxlayır. Ona görədir ki, Rəşad Məcidin lirik qəhrəmanı da həmin işığın, milli-mənəvi varlığın real və təbii bir daşıyıcısıdır. Yol qırağında əlində çomağı ilə yurda keşik çəkən balaca çoban haqqındakı obrazlı düşüncələrin ifadəsi və mövzunun ictimai mahiyyətinin orijinal poetik təqdimi ilə yalnız Rəşad Məcidə məxsus olan şeirin təbii doğuluşu baş vermişdir:

Tərpənən qanımız, qeyrətimizdir,
Balaca boyuyla heyrətimizdir.
Mürgüsü dağılan millətimizdir.
Orda – keşik çəkir yol qırağında,
Yurda keşik çəkir yol qırağında.

Rəşad Məcidin şeirlərində təkcə təbiətin deyil, milli-mənəvi dünyamızın daxili mahiyyəti, işıqları bütün təbiiliyi ilə sayrışır. Bu, Azərbaycan ədəbiyyatında zaman-zaman "Bakının sayrışan işıqlarından", "közərən ocaqlar"dan, yollara çıxan "işıq qatarlarından" sonra yaranmış yeni bir işıq dalğasıdır.

Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Vaqif Bayatlı, Vaqif Bəhmənli, Rüstəm Behrudi, Elman Həbib və başqaları həmin yeni şeir axınına hərəsi bir hadisə olaraq gəlmişlər. Rəşad Məcidin şeirləri bu böyük dalğanın içərisində özünəməxsus bir poetik hadisədir. Rəşad Məcidin lirikası – işıqlı düşüncələrin şeiriyyətidir. Onun şeirləri Günəş, işıq, Ay işığı, ümid, ulduz, ocaq, pərvanə, şəfəq, şam, nur, od, alov, köz, kibrit, çiçək və sair kimi işıqlı ifadələrin cazibəsi üstündə qurulmuşdur. Bu şeirlər dəmirçi kürəsi və ya qızmar günəşin altındakı torpaq kimi istidir. “Gül-çiçəklər yaraşıqdı, lalələr xaldı eləcə”, “Od-alov sazını basıb döşünə, Kərəm qisasını aldı Ədalət”, “Bir işıqdan keçdim, anam, Gözlərimi dörd elədi” misralarında işıq əsas mənanın mühüm daşıyıcısıdır.
Müdriklik ölçülərində də Rəşad Məcid təbii bədii düşüncənin ən fəlsəfi və ümumiləşdirilmiş obrazlı örnəklərini təqdim edə bilir. Gənclik illərində yazdığı şeirlərindəki kamillik ömrünün yetkinlik dövrünü yaşayan təcrübəli bir insanın mütəfəkkir düşüncəsinin ümumiləşmiş poetik ifadəsi kimi səslənir:

Sonrakı təəssüf hədərdi, hədər –
Ağlayıb sızlama hər addımbaşı.
Qəlbin günahını yuyar bəlkə də,
Ağlın günahını yumaz göz yaşı.

Rəşad Məcid şeirinin qayəsində “Arazlaşan, Kürləşən Vətənin” bütövlüyü və qüdrəti, “At belində, döşündə saz, əlində qılınc” nər oğulların daim ayıq-sayıq ölkənin keşiyini çəkməsinin müqəddəsliyi, obanın, elin tarixi yaddaşı olan Cıdır düzünün timsalında torpağımızın bölünməzliyinin qorunması ideyaları müsəlləh əsgər qüruru ilə dayanır. Rəşad Məcidin vətənpərvərlik mövzusunda yazdığı şeirlər şair-vətəndaş mövqeyinin poetik ifadəsidir. O, ana Vətənlə özü arasında da, xalqı və ölkəsi müstəvisində də geniş mənada bütövlüyün tərənnümçüsüdür. Böyük ideallara həsr olunmuş Vətən şeirlərində həm də yüksək şeiriyyət, böyük bədiilik vardır.

…Dərəsi, torpağı, düzü, dağıyla,

Köksümə, qəlbimə yerləşən Vətən.
Nə vaxtdır bölünən bölünməzliyi,
Bir namərd baxışlı göz deşən Vətən.
***
…Dikələn qayası, ucalan dağı
Əyilməz bürcüdür, yanan çırağı.
Yayılıb Kür boyu, Araz qırağı
Arazlaşan Vətən, Kürləşən Vətən.



Müşahidə olunur ki, Rəşad Məcidin şeirlərində obrazlı işıqlı düşüncələr, həyata lirik-romantik və gerçəkçi baxış həm də epik təhkiyə ahəngində ifadə edilir. Bu şeirlərin bir çoxunda zahirən görünməsə də, hiss olunacaq səviyyədə müəyyən süjet əlamətləri də nəzərə çarpır. Bunlar heç də süjetli lirika nümunələri deyildir. Bu şeirlərdə dialoq da yoxdur. Rəşad Məcid şeirlərində dərin, zərif duyğularını, həyata və insana

baxışlarını tərənnüm etmir, elə bil nağıl kimi danışır. Rəşad Məcidin şeirlərinin ritmində və mahiyyətində özünəməxsus bir nağıl təhkiyəsi vardır. Bu şeirlərin əksəriyyətinin mahiyyətində lirik-romantik düşüncə, təqdimatında isə zərif epik təhkiyə diqqəti cəlb edir:

Qan yaddaşım od ələyib duyğularıma,
Əfsanələr cavab tapıb sorğularıma.
Bir igid də tez-tez girir yuxularıma
At belində, döşündə saz, əlində qılınc.

Rəşad Məcidin şeirlərindəki nağılvarilik həm lirizmi zənginləşdirir, həm də epik təhkiyənin poetik daşıyıcısına çevrilir. Təkcə nağılvarilik yox, ümumiyyətlə, şifahi xalq ədəbiyyatı Rəşad Məcidin bədii yaradıcılığının, xüsusən də şeirinin əsas qaynaqlarından biridir. Onun dünyagörüşünün formalaşmasında da şifahi xalq ədəbiyyatı mühüm rol oynamışdır. Rəşad Məcidin yaradıcılığındakı millilik amili də öz kökləri etibarilə real həyati qavrayışla yanaşı, həm də zəngin şifahi xalq ədəbiyyatı ənənələrinə bağlıdır. Rəşad Məcid uşaqlıq illərinin nağıl-dastan dünyasının onun taleyindəki yerini, izini geniş ürəklə etiraf etmişdir:

Məni çağırdılar… çəkib nağıldan
Sehrli qarını çağırmadılar,
Qıratı, Düratı çağırmadılar.
O uzaq illərin işıqlığında
Çiçək arzularım boy atır hələ.
Ayrılıb ilahi uşaqlığımdan
O səsin ardınca gedirəm hələ.

***

Rəşad Məcidin “Roman” adlandırdığı poeziya serialı onun yaradıcılığında şeiriyyətlə, lirika ilə epik əlamətlərin sintezinin inkişafı və ümumiləşmiş ifadəsidir. Onun liro-epik şeirləri “Roman”a keçid üçün körpü funksiyası daşıyır. Əlbəttə, Rəşad Məcid bu əsərini şərti olaraq “Roman” adlandırmışdır. Bu, çılğın məhəbbətlə sevən, qarşı tərəfdən anlaşılmazlıq və

tərəddüdlər hiss edən, tamam cavab ala bilməyən, sevdası nakam sonluqla bitən bir gəncin düşüncələrinin poetik təqdimatından ibarət olan tale romanıdır. Hətta bu əsərdə əks etdirilən mətləblərdən, iztirablardan bəlkə də real olaraq roman janrında ayrıca bir əsər də yazmaq olar. Buna görə “Roman” ifadəsi əsərin janrını deyil, ilk növbədə adını, sonra isə mahiyyətini bildirir. Romana məxsus çoxplanlılıq, obrazların zənginliyi, hətta geniş həcm bu əsərdə nəzərdə tutulmayıb. Rəşad Məcidin “Roman” adlandırdığı əsər janr baxımından liro-epik poemadır. Əsər lirik şeirlərlə və epik təhkiyə ilə ifadə olunan hadisələrin nəzərəçarpacaq süjet əsasında poetikləşdirilməsi üzərində qurulmuşdur. Liro-epik şeirlərində olduğu kimi, 1996-cı ildə tamamlanmış “Roman”da da əslində süjet qabarıq şəkildə deyildir. İki gəncin macərasının ayrı-ayrı məqamlarını, təfərrüatlarını, düşüncələrini və iztirablarını əks etdirən bu əsərdə şeirdən-şeirə keçid əhval-ruhiyyənin, ovqatın dəyişməsini, münasibətlərin inkişafını əhatə edən mənəvi proseslərin inkişafını izləməyə imkan yaradır. Silsiləvari şeirlərdən əsərdəki əsas obrazın tərcümeyi-halını, xasiyyətini, aqibətini də müşahidə etmək olur. Poetik şəkildə ifadə olunan daxili monoloqlar əsasında yazılmasına baxmayaraq, “Roman”da süjetin bütün inkişaf mərhələlərini müəyyən etmək mümkündür. “Tapdım” şeiri ilk növbədə “Roman”da epiloq funksiyasını yerinə yetirir. Bu, bədii müqəddimədən əvvəl gələn, əsər boyu cərəyan edəcək hadisələri, çıxarılacaq nəticələri ifadə edən dərin mənalı bir bədii ümumiləşdirmədir. Şeir yaradıcılığındakı “gözəgörünməz” süjetləri özündə daşıyan bəndlərin funksiyasını Rəşad Məcidin “Roman”ında ayrı-ayrı şeirlər yerinə yetirir. Cəmi 56 şeirdən ibarət olan bu poetik silsilə süjetin inkişafından doğan poetik düşüncələr və qənaətlərdir. Başlanğıc hissədəki “Gəldim” şeiri əsərin süjet xəttində bədii müqəddimənin girişi – proloqu funksiyasını daşıyır. “Uşaq, uşaq…, balaca uşaq” şeiri “Roman”dakı obrazların ilkin təqdimatıdır. “Roman”ın qəhrəmanının “yoluna

çiçəklər sərmək", "saçına çələnglər hörmək" istədiyi Uşaq ilə onun arasında həm "yaş adlı uçurum qılıncı durur", həm də yaşdan doğan dünyagörüş fərqini də əks etdirir. Bundan sonra hadisələrin ilkin dolaşıqlıq mərhələsi başlayır. "Çərlədim" şeiri "yüz addımın qabağında bir addıma gücü çatmayan", "sözü kəlbətinlə çıxan" Uşağın xarakterindən yaranan ilk iztirabların ifadəsidir. Onu sanki iki dünya arasına salan "Quyu" şeiri ilə ziddiyyətlərin daha da artmaqda davam etdiyi görünür. "Qurtul, görüm", "Qurtulmasan batma yasa", "Ağla" şeirləri əsərdəki sevgi iztirablarını dilləndirir. "Mən gəlib çatanda getmişdin artıq" şeirində tərəf müqabilin obrazı "nərgiz topası" kimi təqdim olunur. "Son" şeirində iztirabların dərin həyəcanı döyünür. Amma "Yaxşı ki bu son olmadı" şeiri ilə hadisələr nikbin məcra alır, yeni nəfəs qazanır. "Bu həftə", "Mənim bəsimdir", "Qurban vermə gəl", "Öldürmək istədiyin hissin nəğməsi" şeirlərindən hər biri qarşılıqlı münasibətlərin inkişaf etməkdə olduğunu göstərir.

"Roman"da janr baxımından əsl romanlarda olduğu kimi bir neçə yerdə haşiyə xarakterli şeirlər vardır. Üç hissədən ibarət olan "Ovqat" şeiri də haşiyə funksiyasını yerinə yetirir. Haşiyələr əsərdəki əhvalatın, ovqatın həmin andakı mahiyyətinin açılmasına, aydınlaşmasına, gərginliyin azaldılmasına xidmət edir. "Qayıdır" şeirində vüsala çatmaq yox, hicranın çətinlikləri qarşısında qalan qəhrəmanın "çəkdiyi təlaş"ların yenidən qayıtdığı dilə gətirilir. Ümidqarışıq ilkin qənaət: "Hələ də uşaqsan". Və birinci qəti addım: "Əlindəki öpüş yeri":

Yaqut qaşlı üzük kimi,
Bahalı bilərzik kimi,
Göyərəcək, qızaracaq
Çapıq kimi, kəsik kimi
Neyləsən də getməyəcək
Əlindəki öpüş yeri.

"Əlindəki öpüş yeri" həm də bu mövzuda yazılmış müstəqil bir

şeirdir. Ümumiyyətlə, "Roman"dakı şeirlərin çoxu mətndən kənarda ayrıca şeir nümunəsi kimi qəbul oluna bilər. "Gəldim", "Ağla", "Sənə görədir", "Səndən bir söz çıxanacan", "Sənsiz", "Getdinsə", "Məni", "Saatım qurulub sənin vaxtına" və sair şeirlər Rəşad Məcidin lirikasının da, yeni Azərbaycan şeirinin də dəyərli nümunələri sayılmağa layiqdir. Eyni zamanda, bu şeirlər "Roman"da süjetin inkişafını, tərəflərin əhval-ruhiyyəsini, həyatın, sevginin, iztirabların da mənasını açmağa, aydınlaşdırmağa, inkişaf etdirməyə xidmət edir. Azərbaycan ədəbiyyatında poema yaradıcılığında lirik ricətlər, haşiyələr kimi şeirlərdən istifadə olunması ənənəsi zəngindir. Lakin "Roman"da özünəməxsus nazik bir süjetə malik olan poemanın əsasən biri digərinin davamı olan şeirlər üzərində qurulması nadir ədəbi hadisədir.

Hələ XX əsrin səksəninci illərinin sonlarından sürətlə dəyişməyə, hətta dağılmağa başlayan və tamamilə təzə məcrada yenidən qurulan dünya və ölkə artıq şairlər üçün "əzəldən yaranan tamaşa" səviyyəsində xalis lirika nümunələri yaratmağa çağıra bilmirdi. Artıq zaman ayrılıqda heç bir janrı ön sıraya çəkə bilmirdi. Həyatda, mübarizə yollarında, səngərlərdə olduğu kimi, ədəbiyyatda da janrların bir-birinə köməyi, yardımı, birgə iştirakı zəruri bir tələbat kimi meydana çıxmışdı. Rəşad Məcidin yaradıcılığında özünü büruzə verən lirika ilə epik əlamətlərin birliyi Zamanın tələbatından doğan, yeni ədəbiyyatın qarşısında duran mühüm vəzifələrdən biri idi. Bu mənada Rəşad Məcid bir yaradıcı insan olaraq ən yeni dövr Azərbaycan ədəbiyyatının, şeirinin üslubunda doğulmuşdur. "Roman" liro-epik poeması müstəqillik dövrü Azərbaycan ədəbiyyatının müasir tələblərinin və yeni üslubunun mükəmməl bir nümunəsidir. Bu romanda lirik ədəbi növün qoşma, gəraylı, heca vəznli şeirin beşlik, altılıq, yeddilik poetik formaları və sərbəst vəznli şeirlər hadisələrin axarına, obrazların ovqatına uyğun olaraq "iştirak edir", ya da hadisələri və düşüncələri dərinləşdirir və inkişaf etdirirlər. Epik təhkiyədən

də müxtəlif üsullarla istifadə həm “Roman”ın ifadə tərzini zənginləşdirir, həm də ayrılıqda müstəqil bədii nümunələr kimi səsləşən şeirləri bir-birilə əlaqələndirir və hərəkətə gətirir. “Roman”ın kulminasiya nöqtəsi hesab etdiyimiz “Səndən bir söz çıxanacan” şeiri həm ümumən Rəşad Məcid yaradıcılığının, həm də konkret olaraq bu epik xarakterli lirik-romantik poemanın özünəməxsus səciyyəvi ideya və üslub imkanlarını nümayiş etdirir. “Roman”ın qəhrəmanı eşqinə – andına sadiqliyin son həddinə qədər dözüm və inam göstərir. Mənəvi iztirabların ən çətin anlarında “Cavan” adı ilə təqdim olunan naməlum oğlanın varlığı bəlli olanda özünüittiham kimi meydana çıxan daxili monoloq əsərdəki bütün gərginliyi qabarıq şəkildə ifadə edir:

Hər nə dedim, dümdüz dedim,
Gecə dedim, gündüz dedim.
Mən bir kitablıq söz dedim
Səndən bir söz çıxanacan.
***
…Ay düşüb, yerə enərdi,
Günəş bezərdi, sönərdi.
Daşlar da dil öyrənərdi
Səndən bir söz çıxanacan.

Ayrılıq və ondan sonrakı mənəvi iztirabların təsviri ilə “Roman” sona çatır. Lakin əsər tamamlansa da, “Roman”da təsvir olunan kiçik macəranın həyəcanları bitmir. Oxucudan ötrü düşünmək üçün bir romanlıq da təəssüratlar qalır. Bu mənada “Tapdım” epiloqundakı “Beş ildi xəbərim yox idi ondan, İtmiş ürəyimin yerini tapdım” misraları ilə təkcə bir əsərin qəhrəmanının taleyində yox, bütövlükdə insanın mənəvi ucalığının işığında “Roman” davam edir.

Ümumiyyətlə, “Roman” liro-epik poeması insanın mənəvi bütövlüyünə inam haqqında dəyərli bir epitafiyadır. “Roman” – şeirlə yazılmış macəravari serialdır. Liro-epik poema janrında yazılmış “Roman” mövzu və mahiyyət etibarilə insanın mənəvi

bütövlüyünün və ucalığının romanıdır. “Roman” – Rəşad Məcidin liro-epik şeirlərinin bütöv bir silsiləsidir. Nəhayət, “Roman” Rəşad Məcidin ədəbiyyatda, şeirdə bədii möhürüdür və özünütəsdiqidir.

***

Rəşad Məcidin yaradıcılığında 2004-2010-cu illər yeni mərhələyə keçid üçün ciddi bir hazırlıq dövrü kimi diqqəti cəlb edir. Bu illərdə Rəşad Məcid daha çox publisistika ilə məşğul olmuşdur. Publisistika, qəzetçilik işi onu həyatın, cəmiyyətin daha da dərinliklərinə nəzər salması, mühiti və insanları bütün reallıqları ilə tanıya və tanıtdıra bilməsi üçün şərait yaratmışdır. Bundan başqa, 2004-cü ildə qırx yaşında Azərbaycan Yazıçılar Birliyinin katibi vəzifəsinə seçilməsi istər-istəməz təşkilati işlərə, ədəbi mühitin yenidən qurulması vəzifələrinə üstünlük verməsini tələb etmişdir.

2009-cu ildə nəşr etdirdiyi “Əlvida və salam” kitabında toplanmış publisistik məqalələr, yol qeydləri və esselər Rəşad Məcidin yaradıcılığında yeni mərhələyə keçidin növbəti məşqləridir. Azərbaycan Yazıçılar Birliyinin nəzdində yaratdığı Gənc Ədiblər Məktəbində yeni ədəbi nəslin böyük ədəbiyyata hazırlanması qayğıları ilə ciddi surətdə məşğul olması zərurəti onun özünü də bədii yaradıcılıq baxımından yenidən səfərbər etməyə sövq etmişdir. Rəşad Məcidin yaradıcılığında 2011-ci ildən etibarən başlanan yeni dalğa həmin ideya-sənətkarlıq axtarışlarının, daxili-mənəvi səfərbərlik səylərinin qanunauyğun məntiqi davamıdır.

Rəşad Məcidin 2011-ci ildən sonrakı mərhələdə yaranan şeirlərini aşağıdakı kimi qruplaşdırmaq: 1) “Roman” liro-epik poeması ilə səsləşən yeni şeirlər; 2) “Dastan” qrupu şeirləri; 3) Hekayə poetik silsiləsi.

Müxtəlif mətbuat orqanlarında Rəşad Məcidin 2014-cü ildə oxuculara təqdim etdiyi yeni şeir silsiləsinin bir hissəsi ilk baxışda sanki onun “Roman”ının yazıldığı, yaxud çap olunduğu vaxt unudulub kitabına daxil edilməmiş parçalar

təəssüratı yaradır. Başqa bir istiqamətdən baxsaq, yeni silsiləyə daxil olan “Sənsən”, “Bəsdi”, “Bəsdi nədir”, “Əlac”, “Çıxmışam”, “Məni anla”, “Daha”, “Mələyim, iblisim”, “Sənə sarı”, “Məni”, “O” şeirləri sanki “Roman”a sonradan yazılmış əlavələr kimi görünür. Həmin şeirlərdən hər birini çox asanlıqla “Roman”ın kompozisiyasında münasib məqamlarda oturtmaq olar. Bu şeirləri ayrı-ayrı bölmələrə daxil etməklə “Roman”ı daha da qüvvətləndirmək mümkündür. Bununla belə, təzə şeir silsiləsində “Roman”a münasibətdə başqa bir meyil daha qabarıq şəkildə hiss olunur. Sanki bu şeirlər yeni bir “Roman”ın ilkin parçalarının əlyazmalarıdır. Bu şeirlərin əksəriyyəti fərqli bir süjet ətrafında birləşir. Şeirlərdən get-gedə süjet xəttinin dərinləşdiyi və genişləndiyi müşahidə edilir. “Roman”dakı şeirlərin çoxusu daha çox “Mən”ə – lirik qəhrəmana aiddir. Yeni silsilədə isə üçüncü şəxs kimi “O”ya ağırlıq verilib. Bu “O” “Roman”dakı Uşağa bənzəsə də, onun eynisi deyildir. Rəşad Məcid “O”nu “boynuna biçilən kəfəni”, “dar ağacı”, həm də “xilası”, “mələyi və iblisi”, lirik qəhrəmanı “gah göydə yaşadan, gah yerə çırpan” qüvvə kimi təqdim edir. “Roman”dakı Uşaqla müqayisədə “O” ilə münasibətlər xeyli dərəcədə aydındır. “O” – silsiləsi eşqinə vəfalı lirik qəhrəmanın əbədi sevdasının nəğməsidir. Yeni şeirlərdəki lirik qəhrəmanda “Roman”dakı ümidsizlik, sentimental əhval-ruhiyyə nikbinlik və inam hissləri ilə əvəz olunmuşdur:

Üstümdə Tanrı nəfəsi,
Üzümdə sevda həvəsi
Dağıtmışam dar qəfəsi
Ölməmişəm, sağ çıxmışam.
***
Keçdim çətin mərhələdən,
İnildədi, əsdi bədən.
Bu on ballıq zəlzələdən
Bir boy qalxıb sağ çıxmışam.

Fikrimizcə, “O” – şeir silsiləsi daha dərin həyat həqiqətlərini və

daha yüksək sənətkarlıqla ifadə etməklə təzə bir roman meydana qoymaq cəhdinin, niyyətinin poetik ifadəsidir. O – “Roman”dakı Uşağın davamının, “Mən” isə əsərin yeni qəhrəmanının inkişafının fərqli əks-sədasıdır. Bu, bir-birinə üzvi surətdə bağlı olan, lakin hadisələrin inkişafından doğan təzə əsərdir. Yeni silsilənin lirik qəhrəmanı “Roman”dakı kimi “ürəyinin yerini” beş ildən sonra tapan romantik bir gənc yox, artıq əlac haqqında düşünən, “ağrıların min iz yeri” yaddaşında sızlasa da çarə axtaran, qərar qəbul edən təpərli, ürəkli bir cavandır:

O-dur sənə dərman, ilac,
Gördün ki, yox başqa əlac.
Əlindən tut, üstünə qaç,
Diri tərpən, di tez yeri.

Rəşad Məcidin “Hekayə” adlandırdığı şeirlər onun yaradıcılığında “Roman”dan “Dastan”a keçid funksiyasını daşıyır. Bu şeirlər Azərbaycan süjetli lirikasının poetik hekayəsidir. “Roman”da özünü göstərən nağılvari təhkiyə “Hekayə” şeir silsiləsində konkret süjetli lirika vasitəsilə təkcə hadisəni yox, həm də baş verənlərə münasibətin poeziyasını yarada bilmişdir. Bu baxımdan Rəşad Məcidin “Həsrət” şeiri Azərbaycan süjetli lirikasının orijinal bir nümunəsi sayılmağa layiqdir.

Rəşad Məcidin yaradıcılığında “Roman” kimi “Dastan” da şərti ad olub, lirik qəhrəmanın inkişaf edərək yetkinləşmiş obrazını təqdim edən fərqli bir əsərin mahiyyətini ifadə edir. Hadisələrin epik tərəfinin bir qədər də qüvvətlənməsi, qəhrəmanın hərəkət və davranışlarındakı ayıqlıq və qətiyyətin, çətin vəziyyətlərdən çıxmaq qabiliyyətinin nisbətən geniş təsviri “Roman”la müqayisədə yeni əsərin “Dastan” adlandırılmasını şərtləndirmişdir. Bu mənada “Dastan” əsəri “Roman” liro-epik poemasındakı hadisələrin davamı yox, həmin əsərlə səsləşən, lakin qəhrəmanı fərqli ampluada təqdim edən yeni romandır. “Roman”da olduğu kimi, 2014-cü ilin “Dastan” qrupuna aid olan

poetik sovqat da müəyyən süjet xətti ətrafında cəmləşən lirika nümunələri olmaqla bərabər, həm də hər biri ayrıca, müstəqil şeirlərdən ibarətdir. Silsiləyə daxil olan "Sənsən", "Mələyim, iblisim", "Üzünə qurban" şeirlərində lirika o qədər dərindir ki, onları yalnız Rəşad Məcidin yaradıcılığına çox yaxından bələd olanlar hər hansı bir süjetin tərkib hissəsi kimi görə bilərlər. Şeirlərdən süjet düzəltmək artıq Rəşad Məcidin şeir yaradıcılığının oturuşmuş bir sistemidir. Hər biri müstəqil poetik nümunə olan ayrı-ayrı şeirlər vasitəsilə geniş süjet xətti yaratmaq, kompozisiya qurmaq Azərbaycan ədəbiyyatında ilk dəfədir ki, Rəşad Məcidin yaradıcılığında bu qədər davamlı olaraq təzahür edir. İlk şeir dəftərində, "Roman" liro-epik poemasında nəzərə çarpan və şeirdən-şeirə inkişaf edən süjet xətti yaratmaq xüsusiyyətinin "Dastan" qrupu şeirlərində də açıq-aşkar görünməsi bu tip ifadə vasitəsinin Rəşad Məcidə məxsus fərdi üslubi keyfiyyət olduğunu təsdiqləyir.
Son onilliyin şeir silsiləsində "Roman"a yaxın olmayan, "Dastan"dan xaric şeirlərdə də Rəşad Məcidin yaradıcılıq təkamülü aydın surətdə müşahidə olunur. Əvvəla, yeni mərhələdə şairin yaradıcılığında ictimai motivləri genişləndirmişdir. Rəşad Məcid poeziyada mənəvi münasibətlərdən daha çox, ictimai prosesləri mənalandırmağa çalışmışdır. O, artıq indiyə qədər "cavabını tapmadığı suallar"ı bədii yaradıcılığının əsas obyektinə çevirmişdir. Yeni mərhələnin şeirləri illərdən bəri onu daxilən "topalaşıb qurd kimi gəmirən", uzun vaxt ərzində "düşünməkdən yağmalandığı" məsələləri diqqət mərkəzinə çəkir. "Göz yaşı" şeirində Rəşad Məcid ölkə səviyyəsində itki sayıla biləcək dəyərlərin ağısını oxuyur. O, artıq "ölkədə, dünyada nə yenilik var" sualını poetik baxımından mənalandırmağı vacib sayır, "mənim danışmağa öz xəbərim var" deyərək dünyaya biganə qalmadan milli maraqlara cavab verən sualların ədəbiyyatını yaratmağa üstünlük verir. Rəşad Məcid bütövlükdə bədii yaradıcılıqda, o cümlədən də şeirlərində daha çox yazıçı-vətəndaş kimi çıxış

edir. Bir çox şeirləri müstəqillik dövrü Azərbaycan vətəndaşlıq poeziyasının layiqli poetik nümunələri sayıla bilər.
Yaradıcılığının XXI əsr mərhələsində vəznindən və mövzusundan asılı olmayaraq, Rəşad Məcid bütün hallarda şeirlərində vətəndaşlıq duyğusunu özünəməxsus lirika ilə ifadə etməyi zəruri hesab edir. Onun əksər şeirləri ictimai motivlərin bədiiliklə sintezindən yaranmışdır. Dərin ictimai məzmuna malik olan "Bayrağım" şeiri müstəqil dövlətinin bayrağına dərin sədaqətini ifadə edən şairin həm də millətinə və ölkəsinə xidmət edən sənətin, ədəbiyyatın bayrağını gələcəyə aparmaq andının dolğun poetik ifadəsidir.
"Bayrağım" şeiri həm də "Dastan"ın epiloqu kimi səslənir. Rəşad Məcid şeirinin estetik idealı kimi ifadə edilən ağ atlı oğlan ölkənin bütövlüyünün və xalqın milli-mənəvi varlığının etibarlı keşikçisidir. Bu ağ atlı oğlan – əslində yurdun, torpağın sahibidir. "Köç yolunda at üstündə" doğulan, qəlbində bahar çağlayan ağ atlı oğlanın idealı isə "işləri qayadan-daşdan" keçən xalqına xoş günlər bəxş etməkdir. Rəşad Məcid "ümidi işıqlı", "yolları açıq" təsvir etdiyi ağ atlı oğlanında xalqın bütün gücünü cəmləşdirir:

Köç yolunda, at üstündə
Qəfil körpələr doğulub,
Hamıdan sağlam oldular,
İldırımla savaşdılar,
Küləklərlə vuruşdular,
Ağ atlı oğlan oldular!

Rəşad Məcidin ağ atlı oğlanı müstəqillik yollarında inamla irəliyə gedən Azərbaycanın dövlət bayrağının keşiyindədir:

Səni ən çətin
Günlərimdə qorudum.
Beynimə həkk edib,
Ürəyimə sarıdım.
Mahnımda,
Nəğməmdə gizlədim.

Aya baxıb xatırladım,
Ulduzumu sevdim.
Üç rənginə öyrəndim,
Hər üzünü sevdim.
Hücumdan, həmlədən qorudum,
Küləkdən, tufandan keçirdim.
Bir gün qaldırdım başımın üstünə
Saxladım,
Əymədim.

Qarabağ mövzusunda yazılmış ən yaxşı şeirlərin sırasında Rəşad Məcidin “Şuşa” və “Cıdır düzü” şeirlərinin də özünəməxsus yeri vardır. Çox səmimi duyğular və orijinal bədii vasitələr əsasında 2021-ci ildə yazılmış “Şuşa” şeiri dərhal mahnıya çevrilmişdir. Rəşad Məcidin “Şuşa” şeiri Azərbaycan poeziyasının Şuşanaməsinin diqqətəlayiq poetik səhifəsidir.

Min şəhər adı var dillər əzbəri,
Adların ən üstün adıdı Şuşa.
Musiqi notudur cüt hecasıyla:
Dilimin şəhdidir, dadıdı Şuşa.
***
Ciyərdə nəfəsdir, damarda qandır,
Ruha qanad verən sirli məkandır,
Bilib eşidəndir, güc artırandır,
Qoşundur, əsgərdir, ordudur Şuşa.
***
Qoynuna hər gələn yüz xəyal eylər,
Qıraqda qalanlar qeylü-qal eylər,
Birini coşdurar, birin lal eylər,
Tilsimdir, ovsundur, cadudur Şuşa.

Bütövlükdə Rəşad Məcidin şeir yaradıcılığı torpaq qoxulu, Vətən ətirli poeziyadır. Rəşad Məcidin estetik idealı mərdanəliyin, bütövlüyün, milli düşüncənin, vətənpərvərliyin və müstəqil dövlətçiliyin daşıyıcısı olan lirik-romantik qəhrəmandır. Bu lirik qəhrəmanın ayağı odlu torpaqdadır, başının üstündə

isə dövlət bayrağı dalğalanır. Vətən torpağı ilə dövlət bayrağının vəhdəti Rəşad Məcidin estetik idealının mahiyyətidir.

***

Məlum olduğu kimi, bədii nəsr sahəsinə Rəşad Məcid az müraciət etmişdir. Hələlik onun bizə məşhur “10 sentyabr” və “Cənnət dərəsi” hekayələri məlumdur. Qeydlərindən aydın olur ki, “Tüstü” adlı bir hekayəsi isə nə vaxtsa hansı redaksiyadasa itib. Lakin bu qədər azsaylı hekayələr də Rəşad Məcidin nəsr imkanları haqqında fikir söyləməyə, söz deməyə şərait yaradır.
“10 sentyabr” hekayəsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatında hekayə janrının ən yaxşı nümunələrindən biridir. Bu, yeni tarixi mərhələdə kiçik hekayənin böyük nümunəsidir. “10 sentyabr” kiçik hekayəsində dövrün böyük mətləbləri öz əksini tapmışdır. Hekayədə böyük dövlətlər və kiçik xalqlar kimi ciddi bir problem sadə bir əhvalat əsasında həll edilmişdir.
Rəşad Məcid hekayədə kiçik cizgilərlə xarici vətəndaşın portreti də cızılmışdır: “Gombul, balacaboy kişi. Kişinin ovurdları işləyir. Əslində… paxlavanı çeynəmir, bütöv-bütöv udurdu…
Bayaqkı gombul kişi onu görən kimi “pliz, pliz” deyib qucağındakı qıvrımtüklü iti sığallaya-sığallaya dəhlizin əks tərəfinə keçdi… Kişinin getdiyi tərəfdən bayaqkı qadın çıxıb ona yaxınlaşdı… Alıb çantanı açdı, dollarları saydı. Əlindəki şax əsginaslara işarə edərək:
– Çim it alacaq.
Sonra pulları çantanın içinə qoyub əlini uzatdı:
– Sağ ol! Minnetddar-am!”.
Rəşad Məcidin portretin zahiri görkəmi ilə daxili aləmi arasında yaratdığı uzlaşma oxucunun “xarici qonaq” haqqında obyektiv nəticə çıxarmasına imkan yaradır.
“10 sentyabr” hekayəsindəki taksi sürücüsü Akif müasir mərhələdə Azərbaycan ədəbiyyatında kiçik adamın böyük obrazıdır. XX əsrin əvvəllərindəki “kiçik” adam obrazlarından

fərqli olaraq, artıq müəyyən peşə sahibi olan, zavodda işləyib mükafatlar alan, dəyişən zəmanənin “taqəzası” ilə iş yeri bağlanan, çətinliklərlə üzləşən Akif halallığı, zəhmətkeşliyi, sədaqəti və səxavəti ilə səciyyələnən obrazdır. Taksi sürücüsü Akif cəmiyyətdə gedən ictimai-siyasi proseslərin yaratdığı böhranın doğurduğu kiçik adamın bütün taleyini daşıyır və psixologiyasını özündə əks etdirir. Akif keçid dövründə baş verən mənəvi aşınmaları adlayıb keçən, sıxıntılara düçar olsa da, ləyaqətini uca tutmağı bacaran azərbaycanlı obrazıdır. Cəmiyyətdə xaos, çaşqınlıq dövrü kimi səciyyələndirilən həmin mərhələnin adamlarının ədəbiyyatda daha çox mənəvi böhranından, aşınmasından yazmaq meylinin üstün olduğu vaxtda Rəşad Məcidin sabit mənəviyyata malik kiçik adamın böyük dəyərlərini təqdim etməsi ədəbi prosesin də axarına təsir edən əhəmiyyətli hadisədir.
1987-ci ildə qələmə alınmış “Cənnət dərəsi” hekayəsi Rəşad Məcidin bədii nəsr sahəsində ilk addımı olsa da, həm də “10 sentyabr” hekayəsi üçün məşq funksiyasını daşıyır. Təhkiyə və təsvirlərindəki doğmalıqdan başqa, vətənpərvərlik notları bu hekayələri yaxınlaşdırır. “Cənnət dərəsi”ndə ifadə olunan kəndə qayıdışa çağırış “10 sentyabr” hekayəsindəki milli-mənəvi dərketməyə qayıdışın start nöqtəsidir. “10 sentyabr” hekayəsi ilə Rəşad Məcid həcm etibarilə kiçik bədii forma daxilində böyük və dərin ictimai mətləbləri ifadə etmək bacarığını nümayiş etdirir. Bu mənada ümumi yaradıcılığının fonunda nəzər salsaq, “10 sentyabr” hekayəsi Rəşad Məcid nəsrinin “Roman”ıdır. Sabitləşmiş, inkişaf edən və dünya ilə üz-üzə olan yeni Azərbaycanda cəmiyyət həyatının epik mahiyyətinin gerçək romanı “10 sentyabr” hekayəsinin bətnində müşahidə olunur. Bu hekayənin on xarici dilə tərcümə edilərək bir kitabda çap edilməsi qlobal məkanda həm müasir Azərbaycan nəsrinin indiki səviyyəsinin dünyaya təqdim edilməsi baxımından əhəmiyyətli hadisədir. “10 sentyabr” hekayəsi ilə Rəşad Məcid böyük ənənəsi olan Azərbaycan

nəsrinə layiqli bir əlavə gətirə bilmişdir. Rəşad Məcid bir hekayə ilə – “10 sentyabr” hekayəsi ilə müasir Azərbaycan ədəbi mühitində nasirlik səlahiyyəti qazanmışdır.

***

Hansı istiqamətdən baxmağımızdan asılı olmayaraq, Rəşad Məcid daha çox mətbuat aləmindəki geniş fəaliyyəti və publisistikası ilə görünür. Rəşad Məcidin publisistikası onun nəsri ilə jurnalistikası arasındakı xüsusi bir yaradıcılıq hadisəsidir. Günün nəbzindən doğan çoxsaylı məqalələr yazmaq meyli jurnalistika fəaliyyəti baxımından Rəşad Məcid daha çox naşirdir. Rəşad Məcidin Baş redaktoru olduğu “525-ci qəzet” müstəqillik dövrü Azərbaycan mətbuatının inkişafının mükəmməl bir göstəricisidir. “525-ci qəzet” Azərbaycanda ictimai-siyasi mətbuatla ədəbi mətbuatın hər ikisinin funksiyalarını birlikdə daşıyan və yüksək peşəkarlıqla inkişaf etdirən nadir qəzetçilik nümunəsidir. Bu mənada “525-ci qəzet” yeni tipli jurnalistika məktəbi yaratmış mətbuat orqanıdır. Çoxaspektli mətbuat orqanı olan “525-ci qəzet” Rəşad Məcidin Azərbaycan milli mətbuatının inkişafında tarixi xidmətidir. Bununla belə, Rəşad Məcid həm də özünəməxsus publisistikası olan qəzet adamıdır. Publisistikası konkret problemlər ətrafında araşdırmaların və mühakimələrin ifadəsi əsasında formalaşır. Publisistikasındakı analitik təhlil həyatı, prosesləri, insanları daha dərindən göstərməyə, obyektiv nəticələr çıxarmağa şərait yaradır. Müxtəlif illərdə yazılmış “Unudulmamaq haqqı”, “Yeni paytaxt ehtiyacı”, “Səfərin təzəsi, dostun köhnəsi”, “Əlvida və salam”, “Ağ dənizin duzu” və sair kimi publisist məqalələri müasir cəmiyyətin doğurduğu konkret məsələlər ətrafında müşahidələr və mühakimələrdir. Publisistikasında Rəşad Məcidin bir ziyalı-vətəndaş olaraq aydın mövqeyi ifadə olunur. Publisist məqalələrindəki təmkinli və aydın mövqeyə malik Rəşad Məcidlə cəmiyyətdən, gündəlik həyatdan tanıdığımız Rəşad Məcid bir-birini tamamlayır. İctimai-siyasi və ədəbi-elmi mühiti tam olaraq birlikdə görməyi

və dəyərləndirməyi bacarmaq, daim irəliyə doğru dərk olunmuş obyektiv baxış Rəşad Məcidin jurnalistika fəaliyyətinin və publisistikasının mahiyyətini təşkil edir.
Rəşad Məcidin siyasi publisistikasında da müəyyən mənada bədiilik var, dərin səmimiyyət ifadə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə 2013-cü ildə iki görüşdə – Milli Mətbuat Günündə və dövlət başçımıza "Jurnalistlərin dostu" mükafatının təqdim olunması mərasimindəki çıxışları bir media təmsilçisindən çox, yüksək ziyalı – vətəndaş düşüncəsinin təbii və səmimi ifadəsidir. "Dəlicəsinə" kitabına "Mətbuat tarixinə yazılacaq böyük hadisə" və "Dostluğun böyük nümunəsi" adları ilə daxil etdiyi mətnlərdəki müraciət, xitab üstündə qələmə alınmış məqalə əhəmiyyətli publisistika nümunələridir.
Daha bir publisistika nümunəsində – "İdarəçilik Akademiyasında jurnalistika dərsi" məqaləsində "yaxşı nədir, pis nədir" sualına verdiyi şərhlər həm də Rəşad Məcidin mətbuata, publisistikaya, əslində, bütövlükdə həyata münasibətindəki sabit və aydın mövqeyi dolğun şəkildə əks etdirir: "Yaxşı nədir, pis nədir" sualının cavabına toxunmuşkən qeyd edim ki, əslində, istənilən məsələyə ən azı iki yanaşma var. Cəmiyyətdən özünü təcrid edən, ətrafında baş verənlərə biganə yanaşan insanlar, adətən, bu seçimdə daha asan olana – mənfi çalara, neqativə üstünlük verirlər. Yaşadığı topluma, onun problemlərinə laqeyd qala bilməyənlər, lokal yox, mümkün qədər qlobal görünən, ölkəsinin, Vətəninin işıqlı gələcəyini arzulayanlar isə mənfilikləri görüb qeyd etməklə yanaşı, cəmiyyətdəki müsbət tendensiyaları da qabartmağa, ətrafına pozitiv baxmağa çalışırlar".
Qarabağa Böyük Qayıdış mövzusunda 2021-2022-ci illərdə yazdığı məqalələr bu mövzuda meydana çıxan ən yaxşı publisistika nümunələridir. "Şuşa havasının gətirdiyi nağıl", "Şuşa gör nələr eylər", "Gecikmiş Ağoğlan bələdçiliyi", "Şuşaya getmək" kimi məqalələri publisistikanın mükəmməl

Qarabağnamələri adlandırıla bilər.
Son illərdə yaratdığı "Qələmsiz yazılanlar" status-esseləri ilə Rəşad Məcid Azərbaycan publisistikasında tam yeni bir istiqamət yaratmışdır. Rəşad Məcidin statusları və sms-esseləri müstəqillik dövrü Azərbaycan sosial şəbəkə publisistikasında yeni hadisədir. Bu statuslar və sms-esselər yeni tarixi mərhələdə Azərbaycan publisistikasının feysbukdakı stenoqramıdır. "Qələmsiz yazılanlar"la Rəşad Məcid geniş mənada sosial şəbəkə ədəbiyyatını, xüsusən də feysbuk publisistikasını ilk dəfə olaraq ədəbi dövriyyəyə daxil etmişdir. Onun bir çox sms-statusları kiçik hekayə təəssüratı yaradır. Rəşad Məcid status esse və sms miniatür hekayəsinin yaradıcısıdır.
Bütün bunlardan başqa, "525-ci qəzet" vasitəsilə Azərbaycanda publisistikanın yeni nəslinin formalaşdırılmasına açdığı geniş meydan, verdiyi böyük dəstək də jurnalistikanın inkişafı yollarında izi qalacaq hadisədir. Publisistikasındakı özünəməxsus sənətkarlıq Rəşad Məcidin bu sahəyə qəzetçiliklə bədii yaradıcılıq arasında xüsusi bir fəaliyyət növü kimi yanaşdığını göstərir.
Rəşad Məcid bir ədəbi şəxsiyyət olaraq bütün yönləri ilə yaradıcı olan, axtarışlarının ardıcıllığı və bədii təfəkkürünün orijinallığı və genişliyi, baxışlarının və inamının bütövlüyü ilə fərqli görünən kamil və professional bir Azərbaycan yazıçısıdır. Rəşad Məcidin simasında milli təfəkkürlə ədəbiyyat düşüncəsi və aydın siyasi baxış vəhdət təşkil edir.

*İlkin mənbə:* *edebiyyatqazeti.az*

**Redaktor seçimi.**



Sərvanə DAĞTUMAS

**Detektiv ədəbiyyatı və ya macəra ədəbiyyatı. İntellektual detektiv janrı.**

Macəra ədəbiyyatına səyahətnamə, ov janrı, dənizçilik daxildir. Macəra ədəbiyyatında təhlükəsizlik orqanlarının işi ilə bağlı işlənən forması isə detektiv adlanır. Detektiv ədəbiyyat və ya kriminal nəsr bilavasitə cinayətə , onun açılmasına, cinayətkarların obrazlarına və motivlərinə diqqət yetirən ədəbi janrdır. Bunu kim etdi? – cinayəti kimin törətdiyinə dair tapmacaya yönəlmiş detektiv hekayənin mürəkkəb süjet versiyasıdır. “Bunu kim etdi?” termini həm də qatilin şəxsiyyətinin tez aydın olmadığı bir işi təsvir etmək üçün qətl müstəntiqləri arasında istifadə olunur. Qətllərin çoxu qurbanın tanıdığı və ya qohum olduğu insanlar tərəfindən törədildiyi üçün “bunu kim edib?” məsələsinin həlli adətən daha çətindir. Detektivin bir janr kimi əsas xüsusiyyəti əsərdə hansısa sirli hadisənin olmasıdır, hansı şəraitdə baş verməsi məlum deyil və aydınlaşdırılmalıdır. Detektivin mühüm xüsusiyyəti ondan ibarətdir ki, hadisənin faktiki halları təhqiqat başa çatana qədər heç olmasa tam şəkildə oxucuya çatdırılmır. Əksinə, oxucu hər

mərhələdə öz versiyalarını qurmaq və məlum faktları qiymətləndirmək imkanı əldə edərək, araşdırma prosesi vasitəsilə müəllif tərəfindən idarə olunur. Əsər əvvəlcə hadisənin bütün təfərrüatlarını təsvir edirsə və ya hadisədə qeyri-adi, müəmmalı heç nə yoxdursa, o, artıq sırf detektiv hekayəyə deyil, əlaqəli janrlara ( triller, polis romanı və s.) aid edilməlidir.

*Detektivin tarixi.* "Həqiqət və yalan"-qədim Misir alleqorik nağılı, Sofokl "Çar Edip", Herodot "Rampsinit və oğru", Daniel peyğəmbərin kitabından olan " Susanna və Ağsaqqallar ", "Minbir gecə nağılları"na daxil olan "Üç almanın nağılı". "Üç almanın nağılı"nda ilk dəfə süjet bükülməsi metodundan istifadə olunub. Süjet bükülməsi bədii əsərdə süjetin istiqamətini və ya nəzərdə tutulan nəticəsini kökündən dəyişdirən ədəbi alətdir. Bu, hekayənin sonuna yaxın baş verdikdə, buna gözlənilməz sonluq, və ya süjetin bükülməsi deyilir.

*Detektivin növləri.*

1.Qapalı detektiv, qapalı otaqda qətl, qeyri-mümkün cinayət, fövqəlinsanın törətdiyi cinayət. Edqar Allan Ponun "Morq küçəsində qətli" əsəri "qapalı otaqda qətl" süjetinə əsaslanan ilk detektiv əsər hesab olunur. Artur Konan Doyl " Rəqs edən adamlar ", " Rəngli lent ", Aqata Kristi " On balaca hindli ", "Sıçan tələsi" , " Şərq ekspressində qətl", Qaston Leru "Sarı otağın sirri", hake Talbot "Çuxurun kənarı", Robert Van Qulik "Çin labirinti cinayətləri", Umberto Eko "Baudolino" və s. qapalı otaq növünə aiddir.

Con Dikson Karr "Qapalı otaq sirrinin ustası" hesab olunur.

2.Rahat detektiv. Seks və zorakılığa daha az yer verildiyi və ya yumorla təqdim edildiyi, cinayətlərin və araşdırmaların kiçik,

sıx bir cəmiyyətdə baş verdiyi bir detektiv janr növüdür. Bu növ əsərlərdə detektivlər daha çox qadınlar olurlar.

3.Tarixi detektiv. Cinayətin tarixi tarixi hadisələr kontekstində baş verir. Məsələn, V.Eko “Qızılgülün adı “. Müasir müəllifin tarixi reallıqlara yerləşdirdiyi detektiv hekayəsi “ retro-detektiv ” adlanır. Məsələn, Dostoyevski “Cinayət və cəza”, Jan Riçep “İdeal cinayət”

4.Tərs çevrilmiş detektiv. Cinayətkar hekayənin əvvəlindən tanınır, bu cür əsərlərdə detektivin cinayətkarın təqsirini dəqiq necə sübut edəcəyi vurğulanır. “Həqiqət və yalan”-qədim Misir alleqorik nağılı, Sofokl “Çar Edip”.

5.Noir-“qara roman” detektiv. Zorakılıq, jarqon ifadələr, cinsəl istismar və s.Noir janrının əsas xüsusiyyətləri arasında təqdimatın sərt realizmi , sinizm , personajların özünü məhv etməyə meyli, jarqonların bolluğu və süjetdə məcburi cinsi xətt var.

6.Polis detektivi. Polisin baş qəhrəmanlarının şəxsi həyatlarının, çox vaxt dramatik şəkildə nümayiş etdirilməsidir. Süjetin mövzusu ailə vəziyyəti, komandadakı münasibətlər və həyat üçün risk, eləcə də peşəkar fəaliyyətlə əlaqəli stresli mühit ola bilər.

7.Hüquqi və ya leqal detektiv. Hüquq-mühafizə və məhkəmə sistemi “baş qəhrəman” rolunu alaraq əsərdə mərkəzi yer tutur.

8. Casus detektivi, adətən hansısa xüsusi xidmətdə çalışan bir casusun nöqteyi-nəzərindən danışılan, hərəkətli hekayədir.

9. Cinayət romantikası detektivi. Cinayətkarın nöqteyi-nəzərindən danışılan hekayədir.

10.Psixoloji detektiv. Psixoloji konfliktə əsaslanan detektiv elementləri olan trillerin alt janrı.

11. İronik detektiv detektiv janrının postmodernizm izlərini daşıyan atipik növlərindən biridir. İronik detektivdə detektiv araşdırma yumoristik nöqteyi-nəzərdən təsvir edilir və bir sirri açmaq məqsədi daşıyır və hekayə adətən birinci və ya ikinci şəxs tərəfindən aparılır. Çox vaxt bu məcrada yazılan əsərlər detektiv romanın klişelərini parodiya edir. İronik detektiv hekayəsinin inkişafının ilkin mərhələlərində “ ironik ” anlayışı çox vaxt “reallığın cilalanması” rolunu oynayırdı.

12.Fantastik detektiv. Stanislav Lem “İstintaq”, Sergey Lukyanenko “Genom” və s.

13.Siyasi detektiv. Əsas intriqa siyasi hadisələr və müxtəlif siyasi və ya biznes xadimləri və qüvvələr arasında rəqabət ətrafında qurulur. Həm də tez-tez olur ki, baş qəhrəmanın özü siyasətdən uzaqdır, bununla belə, işi araşdırarkən “güclər” tərəfindən istintaqa əngəl törədilir və ya hansısa sui-qəsd üzə çıxır. Siyasi detektivin fərqli xüsusiyyəti (mütləq olmasa da) əsasdan başqa, tamamilə müsbət personajların mümkün olmamasıdır. Bu janra nadir hallarda saf formada rast gəlinir, lakin əsərin tərkib hissəsi ola bilər.

*Detektivdə tipik simvollar*. Peşəkar, şəxsi, həvəskar. Çexov “Ovda dram”, Aqata Kristi “On zənci balası” detektivlərdə qatillər fərqlidir.

Çağdaş Azərbaycan ədəbiyyatında realist detektiv romanları bir neçə qrupa bölmək olar:

– siyasi detektiv romanı;

– kəşfiyyat (şpion) detektiv romanı;

– sənədli detektiv romanı;

– macəra detektiv romanı;

– cinayətkarların və cinayətkar dairələrin həyatını əks etdirən detektiv romanlar;

– penitensiar müəssisələrdəki həyatı təsvir edən detektiv romanlar.

Azərbaycan ədəbiyyatında detektiv janrının banisi Cəmşid Əmirovdur. Uzun müddət Cəmşid Əmirov təqiblərə məruz qalmış, əsərlərini oxumaq qadağan olunmuşdur. “Sahil əməliyyatı” əsəri əsasında “İstintaq davam edir” filmi, “Qara Volqa” əsəri əsasında eyni adlı film çəkilmişdir.

**Aqata Kristinın “Şirazda ev” detektivinə baxış**

Parker Pyne Yaxın Şərq turunda Şirazdadır. O, orada tamamilə tək yaşayan və fars olduğunu iddia edən bir ingilis qadın olduğunu öyrənir. Hamı onu dəli hesab edirdi. Parker Pyne maraqlıdır və ona öz xidmətlərini təklif edir. Personajlar: Cənab Parker Pyne, Cənab Şlaqal, Xanım Ester Karr (Ester-gizli,Karr-bataqlıq), Muriel King. Məkanlar. Tehran, İsfahan, Şiraz.

Əsərin qəhrəmanı qatil olaraq ittiham olunduğundan qorxur və xanımının yerinə keçir. Niyə o, üç il ərzində tamamilə fərqli bir insan kimi davranmağı bacardı? Həmçinin bütün qulluqçuların bu məsələdə kor olması da böyük bir məsələdir. Cənab Parker Payne romantikdir. İnsanların xoşbəxt olmasını istəyir və onlara kömək etmək üçün əlindən gələni edir. O, insanların həqiqətən necə olduqlarını və nəyə qadir olduqlarını görür, onların xarakterinə olan bu fikir-genetik biliklər və s. onu öz cavabına aparır.

**İntellektual detektiv janrı**
Detektivdən bir pillə yuxarı olan intellektual detektiv zəka,idrak üzərində qurulan detektivin bir növüdür. Bu növ detektiv əsərlər oxucunun intellektual səviyyəsini daha zəngin edir,məlumatlandırır, əsərlərdə müxtəlif rəsm əsərlərinə, bədii əsərlərə, film adlarına rast gəlmək mümkündür.

İngilis yazıçısı Den Braunun “Cəhənnəm”, “Başlanğıc”, “Yalan nöqtəsi”,”Rəqəmsal qala”,”Mələklər və iblislər”, ”Da Vinçi şifrəsi”, “İtirilmiş simvol” əsərləri intellektual detektivdir. Böyüklər çoxdan bildikləri nəsnələrin əslində gizli kodlara kökləndiyini, bağlı olduğunu oxuduqca, dərinliklərə endikcə, əsərlər daha da qiymətə mindi. Den Braunun ailəsində sirli hadisələr uşaqlıqdan baş verir. Daha doğrusu, həmin sirli hadisələr valideynləri tərəfindən təşkil olunurdu. Sanki uşaqlıqdan belə qeyri-adi sirlərlə böyüməyə kökləyiblər ki, böyüyəndə çaş-baş qalmasınlar, çətinlik qarşısında özlərini itirməsinlər. Den Braunun təhsil aldığı kollec qapalı müəssisə sayılıb. Burada baş verən hadisələr gizli qalıb. Kollecin rəhbərliyinin şagirdləri danlaması, uşaqların çıxardığı oyunlar kənara çıxmaz, bu da qapalı mühitin xarakteri ilə düz gələrmiş. Elə ona görə də Den Braun qapalı mühit barədə yazdıqlarını kollecdən əxz edib. “Cəhənnəm” əsəri mistik-triller janrındadır.

Əsas diqqət intizamsız insan artımı üzərinə çəkilir, insan artımı və onun da özü ilə bərabər gətirdiyi fəlakətlərin qarşısını almaq üçün bir bioloq-alim virus yaradır.ÜST və bir çox qurumlar bu virusu dayandırmağa çalışır, əsər boyunca onlar virusu və məqsədi tapmağa çalışırlar. Əsərdə belə bir ifadə var: “İnsanlığın gələcəyini xilas etmək üçün onun yarısının ölümünə razı olmalısınız”. Bu halda siz nə edərdiniz? İnsan artımı həndəsi silsilə ilə artır və dayandırılmasa, dünya məhv olacaq.Əslində əsərin ideyası bunun üzərində qurulub. Bəziləri virusları insan qətliamı hesab edir,bəziləri tək çıxış yolunun bu olduğunu qəbullanır. İnsan sayı mütləq nəzarətdə saxlanılmalıdır. İllərlə edilən müharibələr, laboratoriyalarda yaradılıb yayılan viruslar bu məqsədə xidmət edib. İnsan şüurlu varlıqdır, lakin o, gözünü yumub dünyaya bir neçə övlad gətirir və onlar ehtiyac, səfalət içində böyüyürlər. Buna mütləq nəzarət etməli, hamiləliyin qarşısını almalıdır, heyvan kimi şüursuz şəkildə cütləşib çoxalmamalıdır. Çexovun bir sözü var: “Bəzi insanlar ona görə dünyaya gəliblər ki, yeyirlər,yatırlar və çoxalırlar”.

Əsərin qadın qəhrəmanı, zəkalı Sienna öz problemlərinə yox, ətrafın, dünyanın problemlərinə yönəlir. Kimsəsizlərə əl tutur, bir dəfə də az qalsın ki, təcavüzə uğrayacaqdı. Onun olduğu Manila şəhərində uşaqların aclığı,alqı-satqısı,pedofillik,zorakılıq onu dəhşətə gətirir. Sienna (adının mənası narıncı-qırmızı) dünyanın təkcə onun xilas edə bilməyəcəyini anlayır.Onun özü depressiya və saçtökülmə xəstəliklərindən əziyyət çəkib. Əsərin digər maraqlı qəhrəmanı Zobristdir. Zobrist kimi insanlar özlərini adi insanların hiss etdikləri kimi hiss etmirlər. Onlar özlərini Tanrı hesab edirlər. Ən çox da ateistlər dünyanı idarə edəcəklərini hesab edirlər. Necə ki, tarixdən bunu görmüşük. Napoleon, İskəndər, Çingiz xan, Hitler və s.kimi tarixi şəxsiyyətlər. Əsərdə müxtəlif rəsm

əsərlərinin, bədii əsərlərin adları, muzeylər, “Dantenin maskası”, “Meduza” və s. oxucunun intellektual aləmini zənginləşdirir. Sirr virus vasitəsilə insan sayını azaltmaq planı idi. Burada əsas niyyət professor Robert Lenqdonu öldürmək illüziyası yaratmaqla onu sirrin açarını tapmağa məcbur etmək olub.

Ekzistensialist,norveçli yazıçı Yu Nesbö əsərləri də intellektual detektivdir.“Şeytanın ulduzu”(“Qarabasma”) əsərində Şeytanın ulduzu tapmacanın həllində açar kimi görünür.Pentaqram intellektuallığın simvoludur. “Qar adam” detektivi soyuq cinayətin, dondurulmuş,açılmamış silsilə qətllərin araşdırılması üzərində qurulub.

İngilis yazıçısı Alex Michaelidesin “Səssiz pasiyent” detektivində qadın çox sevdiyi ərinə qarşı atəş açır, onu öldürür, illərlə səssiz alır və terapevtlə qarşılaşır. Qadının daxili sarsıntıları təsvir olunur.

İngilis yazıçısı Sidney Sheldonun “Oyunun ustası”, “Gecə yarısınını digər tərəfi”, “Mələklərin qəzəbi” əsərləri də intellektual detektivdir. “Mələklərin qəzəbi” əsərində mövzu elmi kəşflərlə bağlıdır.

Fransız yazıçısı, psixoanalitik Julia Kristeva eyni zamanda intellektual ədəbiyyatşünasdır. O, “Bizansda qətl” romanında tarixi və metafizik triller, serial qətllərin qaranlıq tarixi və Bizans şahzadəsi və tarixçisi Anna Komnenin izi ilə səyahət edərək immiqrasiya, kökündən qoparma mövzusuna toxunur.

İtalyan yazıçısı Umberto Ekonun “Qızılgülün adı” əsəri də intellektual detektivdir. Əsərdə bütün sirlər kilsənin

kitabxanasında gizlənir və Vilhelmlə Adso kitabxananın labirintlərində dolaşaraq sirri qoruyan, qadağan olunmuş kitabı əldə etməyə çalışırlar, yəni Aristotelin “Poetika”sını . Bu ölümlərin açarı kitabxanadadır, o açarı tapmaq isə çətindir. Hansısa gizli bir əl Vilhelm və Adso üçün kilsə daxilində maneələr yaradır. Kilsə  kitabxanada elmi həbs edib. Kilsənin xalqın üzərində hakimiyyəti imperatorun hökmündən daha artıqdır, insanların taleyini kilsə müəyyənləşdirir. Eko XIII əsr İtaliyasında dinlə siyasətin toqquşması və toqquşmadan doğan faciələri bir monastır çərçivəsində ustalıqla təsvir edir. Romanda Eko oxucuya “Kitabxananın daxili quruluşu dünyanın cəhətlərinə uyğun gəlir?” deyə eyhamlı bir sual buraxır. Vilhelmlə Adsonun axtarışları yeddi gün davam edir və bu da Tanrının dünyanı yeddi günə yaratdığına bir işarədir.

Ədəbiyyatımızda psixoloq-yazar Rövşən Abdullaoğlu “Abaddon” romanı intellektual detektiv janrında yazılıb, psixoloji zədələr qarşısında müdafiə mexanizmini işə salmış insan şəxsiyyətinin nələrə qadir olduğundan bəhs edir. İnsanın bitməyən daxili savaşı, tənəzzülə və təkamülə aparan amillər demək olar ki, bütün obrazların üzərindən fərqli aspektlərdə açıqlanır. Burada qorxu və cəsarət, qorxu və sevgi hissləri bir bədəndə qarşılaşdığı zaman ortaya çıxan maraqlı davranış modelləri ilə rastlaşır, uşaqkən ilk qorxu qarşısında yenilmiş bir neçə fərqli insan həyatı görürük,əsərdə dissosiativ şəxsiyyət pozuntusu təsvir olunub.

Hər səviyyəli kitabın intellektual tərəfi var. İntellektual detektivdə yalnız rəsm əsərləri,muzeylər, incəsənət nümunələrinin adı çəkilmir, bu, mütləq deyil. Çingiz Abdullayevin əsərlərində silah növləri, təyyarə hissələrinin adları, müxtəlif cinayətlərin açılma üsullarını öyrənmək olar, elə bunun özü də intellektual dünyamızı zənginləşdirir.



**Mövlud AĞAMMƏD**

**TALEYİMƏ DÜŞƏN PAYI YAŞADIM…**

Taleyimə düşən payı yaşadım,
Bundan artıq nə gələr ki, əlimdən.
Haqq deyirlər, qaçmaq olmaz, neyləyim,
Qismət adlı bir çəlimsiz ölümdən.
* * *
Hərə bir cür bədbəxtidi dünyanın,
Gətirməyən bəd bəxtidi dünyanın.
Xatirələr tac-təxtini dünyanın
Qurtarmazmı birdəfəlik zülümdən?
* * *
Həsrət nədir, Mövlud bilir, sən istə,
Çəkildikcə qalaqlanır üst-üstə.
“Alın yazım qismətimdir”–bu səs də
Ömür boyu düşməyəcək dilimdən.
*16.01.2023. Bakı-Quba.*

**VAR…**

Bu yuxunun gerçək adlı tərsi var,
Bu yuxuda ölüm dadı, tamı var.

Bu yuxumu istəmirəm çin olsun,
Bu yuxunun zəhər dolu camı var.
* * *
Kim gətirdi bu yuxunu yuxuma?
Qəm çiləndi, dərd ələndi ruhuma.
Bu yuxunun yozumunu oxuma,
Bu yuxunun pərvanəsiz şamı var.
* * *
Hər anında bir ömürlük xatirə.
Xəyalları, xülyaları gətirər.
Bu yuxuda Mövlud özün itirər,
Bu yuxunun üstü torpaq damı var.
*2.03.2023. Zərdabi.*

**QOŞMA**
Hər ağızın bir avazı, duası,
Kəramət var, inayət var, sözüm var.
Öz özünə bağışlanmaz günahlar,
Məlamət var, qiyamət var, közüm var.
* * *
Aşiqlərin yoxmu məgər dərdləri,
Göz yaşları uçurmazmı bəndləri?
Necə keçim bu keçilməz sədləri,
Mətanət var, dəyanət var, dözüm var.
* * *
Əssə əgər qara yellər dövrana,
Dağ çəkilər sinəsindən dörd yana.
Bağlayıban atın dərin zindana,
Həqiqət var, hidayət var, düzüm var.
* * *
Dünya, Mövlud, yaranışdan ələnir,
Gələni də, gedəni də bələnir.
Adəm oğlu Xaliqinə silənir[1],
Nəhayət var, bidayət var, lüzüm var.

***1. burada qovuşmaq***
*7.03.2023. Zərdabi.*

**GETDİ**
*(yarızarafat)*
Köhnəlib, ay lələ, öyüd-nəsihət,
Təzəsi bir anda bilindi getdi.
Yenicə modalar çıxıb meydana,
Köhnəsi-kürüşü ələndi getdi.
* * *
Fələk addım-addım atır addımın,
Öz adı yadından çıxır adamın.
Nə dadın bilirik, nə də ki, tamın,
Çatıb-çatdırmamış il indi getdi.
* * *
Çətin gəncliyimə bir də qayıdım,
Özümü yatdığım yerdə oyadım.
Taleyimə düşən bəxtdən yayındım,
Heyif yazdığıma silindi getdi.
* * *
Mövludun bəxtinə düşüb beləsi,
Yığılıb, hazırdı şələ-şüləsi.
Gedəcək, bir daha çətin gələsi,
Döz də ayrılığa gəl indi, getdi.
*9.03.2023. Zərdabi.*

**BİRDİR**
Sirlə dolu bir düyünü,
Açma, sirri pünhan birdir
Kilidlənib axıracan,
Cəhd eləmə, açan birdir.
* * *
Sığınmışam dühasına,
Dərd gətirən davasına.

Vallah, bu qəm havasına,
Ha alovlan, ha yan, birdir.
* * *
Tərif etmə bu gərdişi,
Tərk edib Mövlud vərdişi.
Əzrayılın yoxdu işi?
Can alacaq, o can birdir.
*31.12.2022. Zərdabi.*

**İTİRƏM**
Bəzən olur, xatirələr qarışır,
Daş yaddaşım iz, içimdə itirəm.
Dünya məni kölgəsində gizlədib,
Özüm sanki öz içimdə itirəm.
* * *
Kaş görəydim kimliyimi geridə,
Nələr qalıb o günlərdən béridə.
Xəyallarım buz ömrümü əridə,
Alovlanır köz içimdə, itirəm.
* * *
Taleyimə qəm dəftəri yazılıb,
Çəkildikcə ötənlərim azalıb.
Deyir, Mövlud öz payına az alıb,
Həsrətinə döz içimdə itirəm.
*9.12.2022. Zərdabi.*
**QOŞMA**
Ala gözlüm, həsrət bir şey deyil ki,
Çəkmək ilə qurtarmaqdı qorxusu.
Nə xəyalın gəlsin yaxın, nə də sən,
İstədiyim tək bənövşə qoxusu.
* * *
Düşməyəsən dərdin dərin dibinə,
Nə bilirsən dərd üzü nə, dibi nə?
Hər görəndə dərdin səni sevinə,

Qalxa bilsin ərşə dərdin yuxusu.
* * *
Mövlud deyır, yalan acı, düz acı,
Dərd gətirər gülüş acı, söz acı.
Elə bil ki, təkcə mənəm möhtacı,
Nə gizlədim, belə deyir çoxusu.
*25.02.2023. Zərdabi.*



**Zaur USTAC**

## ƏLİŞ və ANNA

*(poema)*

### ŞÜKRANLIQ

Salam olsun Sənə, ey gözəl insan,

Min şükür Haqqa ki, haqqa çatmısan.

Hələ görünməyib, olsun belə hal,

Bir kitab oxuyan görə qeylü-qal.

Bütün ürfan əhli bu rəydə yekdil,

Kitab sayəsində zənginləşir dil.

Şükür Yaradana qılıbdır imkan,

Belə bir görüşü edib ərmağan.

Hər yeni fürsəti mənə verəndə,

İlkin şükrü-səna bitir dilimdə.

Əlində tutduğun bir yığın kağız,

Kitab olacaqdır dindikcə ağız.

Qutlu yaranışın əşrəfi insan,

Ali olduğunu xatırla hər an.

And gəldi qələmə, qələm tutana,

Qafillər oyana, bəlkə utana.

Oxumaq öyrətdi, yazmaq öyrətdi,

Quruca taxtadan bir dil ürətdi.

Kağızı müqəddəs bilmişik hər vaxt,

Üstündə canlı söz yaşayır həyat.

Şükür bu nemətə, şükür qismətə,

İstərəm bu paydan hamıya yetə.

Şükür Yaradana, neçəki sağam,

Onun sarayında Sizə qonağam.

Mən yazım, bulaqlar süzülsün gölə,

Mirvari kəlmələr düzülsün dilə.

Min şükür Haqqa ki, dil verib bizə,

Sizinlə görüşə yol verib bizə...

## TÖVHİD

Uca Yaradanın tək olduğuna,

Nə badə qəlbində şübhə oyana.

Çün, əgər olsaydı xilaf qeyrisi,

Bunu anlayardı mütləq birisi.

Günəşin saatı, ayın saatı,

Çox dəqiq döndərir, tüm kainatı.

Elə qurulub ki, nizam məhvəri,

Gecəylə gündüzün səhv düşməz yeri.

Zərrədən ən böyük ulduza qədər,

Bir “ol”- a bağlısa, onda nə kədər...

Həmd olsun Allaha, tanırıq onu,

Hər kəlmə başında anırıq onu.

Təkdir ehtiyacsız, biz ona bağlı,

Bunca dərk eyləyər, insanın ağlı...

## ƏDL

Şükür Yaradanın ədalətinə,

O Adil Allahın mərhəmətinə.

Elə bölüşdürüb, elə paylayıb,

Hamı qismətindən çox razı qalıb.

Duyuram içini şübhə gəmirir,

Xəyalın hardasa narazı gəzir.

Gəl, tamam  səmimi olaq bu ara,

Ağlından razıdır hər bir avara.

Ağlı elə bölüb, verib Yaradan,

Heç kim öz ağlından deyil bədgüman.

İlahi hikmətin qüdrətinə bax,

Ağıldan kəmlər də deyilmiş axmaq.

Arif işarədən anlar hikməti,

Heç kim bu xüsusda yeməz möhnəti...

## NÜBÜVƏT

Salam olsun Sənə, ey “Haqqın səsi”,

Cəlal sahibinin seçkin bəndəsi.

Məhəmməd Mustafa(s.o), Haqqın nəbisi,

Bütün kainatın son əfəndisi.

Haqqın yer üzünə müjdəsi, andı,

Haqqın yer üzündə qoşa qanadı.

Salam olsun Sənə, kitab sahibi.

Salam olsun, Sənə sonuncu nəbi.

“Qurani –Kərimi” bizə gətirən,

Haqqın kəlamını bizə yetirən,

Xatəmül-Ənbiya hökm edibdi Haqq,
Hököm sahibinə məxsus hököm, haqq.
Salam yer üzünün işığı, nuru,
Ey hököm sahibi, bu nuru qoru.

## İMAMƏT

Nübüvət odundan nur alan işıq,
Atadan, babadan belə duymuşuq.
Rəsulun dizinin dibindən çıxan,
Çeşmədir heç kimə gəlməyib ziyan...
Nümunə olubdur cümlə cahana,
Əlbəttə, aiddir arif olana.
İmamət cığırdır Haqqa aparır,
Əlbət, qaynağını Haqqımdan alır.
Dəmiri dəmirçi oğlu bilən tək,
Bu elmi ən doğru yoldan öyrənək...

İstəməm bu yolda çaşqınlıq ola,

İncəcik bir fidan nahaqdan sola.

Elmin şəhərinin təkdir qapısı,

Bu işin belədir təməl, yapısı...

Salam olsun Sənə ey Əhli-beyt,

Allahım bu yolu daha rəvan et...

**MƏAD**

Müəllim verdiyi dərsi soran tək,

Əlbətdə, imtahan günü gələcək.

Sanma, kainatın yoxdu sahibi,

Boşuna gəlməyib bu qədər nəbi...

Hələki dəvət var, açıqdır qapın,

Dərk eylə dünyanı, Allaha tapın.

Həqiqi elmdən bir damla dadan,

Heç zaman dönməyib, bu doğru yoldan.

Bu yolun mənsəbi, elə mənbəyi,

Burda kəsilibdir elmin göbəyi...

Haqq ilə batilin mayası eyni,

İkiyə bölünmüş bir yolun sonu...

Qəzavü-qədəri qılma bəhanə,

Faili-muxtar tək gəldin cəhanə...

**NAMAZ**

Namaz fərz əməldir,  bizə faydalı,

Dəstəmaz vacibdir, mütləq olmalı.

Namaz bənzədilib evmizdə çaya,

Gərəkdir beş kərə girək bu suya...

Ruhumuz arınsın, pak olsun bədən,

Təkbirdə əlləri asmayaq göydən.

Qüsulu, abdəsti, tam əməlləri,

Mat qoyub dünyada  tüm alimləri.

Heç nə əksik deyil, yox bircə artıq,

Namazdan həyatın dərsin alırıq.

İmkan et, xərcləmə boşa zamanı,

Həyat elə zaman, zamanın anı.

Çalış ki, ötürmə bircə azanı.

Ac qoyma nə ruhu, nə də əzanı...

**ORUC**

Oruc bir əmrdir, Haqqu – Təaladan

İnsanı qoruyar, min cür bəladan.

Elə ki, yetişdi Şahi – Ramazan,

Gərəkdir nəfsini duşaqlayasan...

Cismini, ruhunu səfərbər eylə,

Ağzını, gözünü pəhrizkar eylə...

Dilindən çıxmasın fitnə, ya küfür,

Çevrəni sarısın xoş niyyət, zikir...

## ZƏKAT

Əgər istəyirsən ruzi - bərəkət,

Gərəkdir vaxtında verilə zəkat..

Bilirəm, burada qaçdı dodağın,

Düşündün ki, şair çıxartdı ağın...

Ancaq, tam səmimi, gəl, mənə inan,

Kimsəyə fayda yox zəkatsız maldan...

Sən verdin, vermədin çıxacaq o mal,

ÖZÜN ƏLİNLƏ VER, SAVABINI AL...

## XÜMS

Zəkatla malını qoruyan insan,

Xümslə canını qorumalısan.

Zəkat mala paklıq gətirdiyi tək,

Xüms də canını hifz eyləyəcək...

Sonra loğman, təbib gəzməsin deyə,

LAZIMDI, HEÇ KİMSƏ XÜMSÜ YEMƏYƏ...

## HƏCC

Haçansa ibrətə duysan ehtiyac,

İlahi əmr var – yolun olsun hac...

Dünyanın mərkəzin ziyarət eylə,

Könül sarayını imarət eylə.

Zəm-zəm çeşməsində yuyulsun üzün,

MƏAD SƏHNƏSİNƏ ALIŞSIN GÖZÜN...

## CİHAD

Cihad bizimlədir dandan qüruba,

Çoxunun dilində bitibdi “toba”.

Yaradan dərs verər insan oğluna,

Min rəhmət diləyək Ağaoğluna...

Ruhu neçə kərə olub qonağı,

Edim, etməyimlə dolub otağı...

Bu bir nümunədi, hamımız belə,

Cihad qadağadır, nəfsə, dilə...

Cihad eşidən tək, qavğa düşünən,

CİHADDA ÖZÜNLƏ DÖYÜŞMƏLİSƏN...

## ƏMR-BƏ-MƏRUF

Şükür Yaradana, Sən hikmətə bax,

Xeyir əməllərə daim tut çıraq.

Vacib buyurulub hər müsəlmana,

Gərəkdir xeyirə vəsilə ola.

Yaxşılıq əlindən gəlmirsə əgər,

Pislik də eləmə, başına gələr...

Fəqət, bu vacibdir, gərək biləsən,

Xeyirə çağırıb, dəvət edəsən.

Bu vacib əməldir, gərəkdir bilək,

Xeyirə çağıraq, xeyir öyrədək...

## NƏHY-ƏZ-MÜNKƏR

Vicdanın yerini əzada gəzən,

Haqqa inananın ümidin üzən,

Bu vacib əməli unutma heç vaxt,

Əbədi deyildir, heç bir tacü – taxt...

Özünü müsəlman tanıdan kəsin,

Gərəkdir yanında pislik olmasın.

Pis işdən çəkinsin, həm çəkindirsin,

Bunu bilən yoxsa, qoy belə bilsin...

Yoldan ötəni də qoruyun şərdən,

Özünüz haqda da düşünün hərdən...

## TƏVƏLLİ

Allahın dostları dostun olmalı,

İlk əvvəl Allahın dostların tanı.

Cəlal sahibinə şərik qoşmayan,

Nəbiyə, İmama şəksiz inanan,

Müslimi  müslimin qardaşı bilən,

Mübarək İslamın yoluyla gedən...

Oturub –durduğun olsa bu şəxslər,

Kimsəyə toxunmaz səndən bir xətər.

Çevrəndə dostların dinsə elmdən,

Hər dəm dürr tökülsə  əgər dilindən,

Nə xoş halımıza, bəxtəvərik biz,

Allahın dostların dost seçərik biz...

## TƏBƏRRİ

Cəlal sahibinə şərik qoşanlar,

Onun dostlarına pis yanaşanlar,

Əndazəni pozub, həddin aşanlar,

Yersiz  körüklənib, coşub daşanlar,

Belə adamlardan uzaq dolan, gəz,

Hədsizdən kimsəyə bir xeyir gəlməz...

Bu Haqqın əmridir, qarşı gəlmərik,

Allahın düşmənin düşmən bilərik...

**MÜNACAT**

Şükürdən güc alıb sözüm, söhbətim,

Səndən gizli deyil, şəksiz niyyətim.

Qəlblərdə olanı görüb, bilənsən,

Kimə nə lazımdı onu verənsən.

Yazar, ancaq yazar demişəm hər dəm,

Əgər söz sahibi eyləsə hərdəm.

Qələmə and içən uca Yaradan,

Münacata çıxıb bu qələmtutan...

Əllərim göydədir, dilim duada,

Dua eyləyirəm qohuma, yada...

Şamaxı torpağı qədimdən qədim,

Xaqanisi mənim, Nəsimi mənim...

Başqa bir dühanı gəzirəm burda,

Tarixin kələfin çözürəm burda...

Üstündə durduğum bu köhnə körpü,

Yüz illər əvvələ atacaq törpü...

Yazda da gəlmişəm, qışda da bura,

İçimdə bir ocaq möhtacdır qora.

Hər şey çin-çin durub ruhun rəfində,

Kəlmələr sıraya durub dilimdə...

Bir türlü “Bismillah” edə bilmirəm,

Yeddi yüz əqdəmə gedə bilmirəm...

Ruhuma qanad ver Adil Allahım,

Bir kərə o günə gedim qayıdım...

Bu köhnə körpünün daşı danışsın,

Otların qurusu, yaşı danışsın.

Düz yeddi əsrdir şahidlik edən,

Bu körpü bir namə versin himindən...

Ey bütün gizlindən agah Allahım,

Dağları, daşları yandırıb ahım.

Xeyirə yozulu  nişan ver mənə,

Şübhəsiz bəllidir hamısı Sənə...

Nə, harda, kimindir tək bilən Sənsən...

Kimə nə lazımdır onu verənsən...

## ÜSULİ-İLTİMAS

Səndən istəmirəm nə şöhrət, nə şan.

Səndən istəmirəm beş günlük ad-san.

Var dövlət, saraylar deyil şakərim,

Öz əlim, ayağım olsun nökərim...

Niyətim bəllidir, istəyim dəqiq,

Ustac heç istəməz nə altun, əqiq...

Mustafa oğlunun istəyi təkdir,

Zaurun arzusu dəqiqdir, yekdir...

Nurundan ruhuma çilə bir mərrə,

İynənin yıldızı olsun pəncərə.

Zərindən zərrəcik düşsün qəlbimə,

Aydınlıq, fərahlıq versin əqlimə.

Ərmək istəyirəm, həmin günlərə,

Varmaq istəyirəm, uzaq dünlərə...

Elmin qapıların üzümüzə aç,

O güllü bağçandan bir az ətir saç.

Ruhumuz məst olsun, olsa da anlıq,

Dili tərk etməsin bir an şükranlıq...

**DƏDƏM QORQUD**

Sinəmdə Qopuzum yoxdu, neyləyim,

Simlərə toxunub, mədət umardım...

Dədəm Qorqud ruhu, kömək ol mənə,

Qopuzun namına, Sazın xətrinə...

Bir xışma torpağın, daşın xətrinə,

Yanmayan qurunun, yaşın xətrinə...

Ərlərə ad verib, san saylamısan,

Boylara yol verib, boy boylamısan...

Kamanın xətrinə, oxun xətrinə,

Əslində var olan yoxun xətrinə,

Bir ümid çırağı yandır bu axşam,

Mələklər bilir ki, xeyli bihuşam...

Bilirəm o yolçu obandan keçib,

Bəlkə məzarbaşı qonağın olub...

Bilirəm, söhbətin olub onula,

Nəyi bölüşmüsüz, bölüş mənimlə...

**ŞAH İSMAYILA RƏHMƏT**

Ruhuna min rəhmət Şeyx oğlu Şahım...

Sinəmi dağlayır köksümdə ahım...

Nə qədər çəksək də əzab, əziyyət,

Sözsüz, bir gün doğar, Şəmsi – fəzilət.

Param-parça olub Türkmən elləri,

Min şükür yaşayır yenə dilləri...

Hər dəfə rəhmətlə anırıq Sizi,

Duyduqca şipşirin öz dilimizi...

Qurduğun səltənət bu gün də yaşar,

Könül əngəl bilməz, sərhədi aşar...

Kərkükdə bir əsgər qardaş deyirsə,

Pakistan  paşası sirdaş deyirsə,

Bunun təməlində sənin əlin var,

Ariflər adını rəhmətlə anar...

## ƏCDADI  ANMAQ

Ustaclıyam, əlim ərşi-əlada,

Bu nə sitəm, millətim nə bəlada!?

Ta Şamdan, Sivasa oylağım olub,

Qaradağ, Qarabağ oymağım olub…

Araza heç məhəl qoymayıb onlar,

Ərdəbil, İrəvan yol sürüb onlar…

Qarqarın yatağı olub yurd yeri,

Əcdadın otağı olub qurd yeri…

Qutlu əcdadların övladıyıq biz,

Dünyanın dörd yanı olub evimiz…

İndi yurd yerinin daşı ağlayır…

Gözsüz qurd pirimin başı ağlayır…

Ey qutlu əcdadın qutlu övladı,

Gərək qoruyasan bu şanlı adı…

## HÜRRİYYƏT

Min şükür hürriyyət ocağımız var,

Kölgəlik bir fidan ağacımız var...

Ey uca Yaradan Sən qoru bizi,

Daim, qaim eylə hürr elimizi.

Binə çadırları daş otaq eylə,

Özün bu ulusu min budaq eylə...

Nə qədər xalqlar var yox bir mətəsi,

Çoxunun dili yox kəlmə ötəsi...

Bizim söykənəcək dayağımız var,

Hələ yol alacaq oylağımız var...

## NƏSİMİNİ ANMAQ

Gəzdikcə şəhəri məst olur insan,

Hər tində, döngədə duyğulanırsan...

Adi mamırlı daş, ya paslı dəmir,

Ruhunu dincəldən bir ümid verir.

Bu şəhrin havasın udub Nəsimi,

Mütləq bu məsciddə olub Nəsimi...

Bu daşı, divarı görüb gözləri,

Yəqin o gümbəzə hopub sözləri...

Ruhuna min rəhmət, ya Seyyid Əli,

Yol açdın Ustaca, olmadı dəli...

Bu Cümə Məscidi qədimdən qədim,

Kitabı yazılı, söyləyir elm...

On iki yüz illik qoyub arxada,

Kimlər gəlib-keçib hamı ortada...

## ƏHLİ-QƏLƏM

Şairlər şəhəri, təbiblər eli,

Yurda çıraq tutan ülama əli...

Nə qədər alimi, sənətkarı var,

Şamaxı həmişə olub ziyadar...

Əfzələddin Xaqanisi bir düha,

İmadəddin Nəsimidən yox daha,

Seyid Əzim Şirvanidir, tək ancaq,

Kim nə bilir,  bir də Sabir olacaq?

Abbas Səhət, ya da Hadi bu yerdə,

Könüllərin fatehidir zirvədə...

## QİSSEYİ-KİTAB

Görklü Nəbi Xatəminin (s.o) eşqinə,

Əhli-beyt, Dədəm Qorqud eşqinə,

Şah İsmayıl Xətainin eşqinə,

Azadlığın, Nəsiminin eşqinə,

Bu torpağın, üləmanın eşqinə,

Sazın – sözün, qələm – kağız eşqinə,

Yaradanım cığır açdı, yol açdı,

Arzu tutan qönçələrim gül açdı.

Mehriban Allahın  Əziz adıyla,

Söhbətə başladım söz muradıyla.

Doqquz  mərtəbəsi var bu söhbətin,

Əzəldən bilinə gərək niyyətin.

Nə qədər dəqiqsə arzu və istək,

Həyata  o qədər asan keçəcək.

Bir həyat başlayıb, bitirəcəyik...

Dünyaya bir ibrət göstərəcəyik...

## *BİRİNCİ  FƏSİL*

## FƏSLİ  BAHAR

Miladın  1322 – siydi.

Bahar bayramından bir ay keçirdı.

Bir uşaq doğuldu Sübh azanıyla,

Hamı axışırdı göz aydınlığa.

Atası Sübhanın kefi kök idi.

Uşaq nur topu tək bir oğlan idi.

Əli kömək olsun etdilər alqış,

Atası adını söylədi Əliş.

Azan, İqaməsi söyləndi bir-bir,

Əli kömək olsun, adın Əlişdir.

Əlişin adına kəsildi qurban.

Qamu təncərəyə düşdü bu paydan.

Sübhanın yuxusu çin olmuşdu, çin.

Pay-ürüş paylandı hər qapı üçün.

Hamı dua etdi körpə balaya,

Dualar da yetdi Haqqu-Talaya.

Günlər bir-birini əvəz eylədi.

Əliş də böyüdü, pərvaz eylədi.

Dərsi-təlimini kamal eylədi.

Məntiqdə, hesabda birinci idi.

İslamı, ürfanı tamam-kamaldı.

Onu düşündürən bircə amaldı.

Qurub yaratmaqdı əzmi, amalı.

Məqsədi bir idi, memar olmalı.

Qəlbində niyyəti, dilində Allah,

Amalı yolunda etdi Bismillah.

Təbrizi, İraqı gəzdi, dolandı.

Dəməşqdə, Bağdadda ad-san qazandı.

Ömür vəfa etdi, döndü Vətənə.

Yaradan heç kimi salmaz çətinə.

Baharda doğuldu, yaz tək yaşadı.

Uğur onun dostu, yol yoldaşıydı.

Dünyanın dörd yanı namını duydu.

Əliş Kərəmliydi, Sübhanoğluydu.

Dövrünün ətrafda tək memarıydı.

Xəbəri Şimalda Knyaz da aldı...

## *İKİNCİ FƏSİL*

## ŞİRVANŞAH ŞEYX İBRAHİMİN HÜZURUNDA

Moskva Knyazı duyunca namı.

Gözünün önündə ucaldı damı.

Çoxdan arzusuydu daş qala tikmək.

Ancaq lazım idi bu işi bilmək.

Hər işi odundan, taxtadan olan,

Yoxdu məmləkətdə daşdan anlayan.

Knyaz Kərəmlini soraqlayarkən,

Gördüyü işləri varaqlayərkən...

Əliş Şamaxıda ocaq başında,

Hər axşam qonaqdı bir dost-tanışda...

Qırx dörd yaşının içində idi.

Günləri beləcə rəvan keçirdi.

Qarlı qış kəsmişdi, qapını çoxdan,

Üç, dörd gün keçərdi Böyük Çillədən.

Əliş bəyə xəbər çatdı saraydan,

Elçilər yoldadır çıxıblar çoxdan...

Çiçəyi çıtladı, sevindi bir az.

Düşündü zaval yox, ta heç nə olmaz.

Qırxına keçəndə, qırxından sonra,

Rəqəmlər çəkirdi Əlişi dara...

Qırx dörddən qalmışdı lap səksəkədə,

İki dörd salmışdı onu kəməndə...

İşindən, gücündən əli soymuşdu.

Doğma şəhərində yuva qurmuşdu.

İndi eşidəndə gavırdan xəbər,

Düşündü yəqin ki, ordadır zəfər...

Düz,  Böyük Çillənin 15-i günü,

Elçilər sarayda açdı yükünü.

Başda Qafur bəy, Baratinski,

10 da atlı idi Knyaz elçisi.

Xəbər alan kimi Şeyx İbrahimdən,

Yollandı saraya Kərəmli həmən.

Qafur bəy söhbətə oldu tərcüman,

Elçi danışırdı Knyaz adından.

Şirvanşah tərəddüd içində idi,

Əlişi göndərmək heç istəmirdi.

Bir az Kərəmlinin xoşhal ovqatı,

Əsas da Knyazın dost zəmanəti...

Azdırdı Şirvanşah Şeyx İbrahimi,

Gizlətdi bir anlıq İlahi fəhmi...

Qərara alındı olacaq səfər,

Şirin dil altında gizlənər zəhər...

Səfərə hazırlıq başladı o gün,

Qafilə hazırdı, yetişdi o gün...

20-ci günüydü Böyük Çillənin,

Şəhər yola saldı öz elçilərin...

Qarlı bir gün idi, Günəşsə parlaq,

Gərək biz o günü heç unutmayaq...

### *ÜÇÜNCÜ FƏSİL*

## KNYAZ DİMİTRİ İVANOĞLU İLƏ ƏQD

Yorğun yolçuluğu vurdular başa,

Hamı Kərəmliyə deyirdi "yaşa"...

Dəstə Moskvaya çatmışdı çoxdan,

Kərəmli hesabın tutmuşdu yoxdan...

Bahar Bayramına yeddi gün qala,

Əqd imzalandı İvanoğluyla...

Miladın 1367-si,

14-ü mart idi, daha kəsəsi.

Knyazın marağı tək vaxtda idi,

Dörd il Əlişin vaxtı var idi...

Knyaz bu vaxtın müqabilində,

Sərhəd tanımırdı istəklərində...

İşi vaxtından tez bitirsin deyə,

Əliş tam ixtiyar aldı özünə...

Knyaz Dimitri dedi: - "Ey Boyar,

Bu gündən olmusan külli-ixtiyar"

Şamaxılı "Bəy", " Ər" olmuşdu "Boyar",

İşində ağaydı, külli-ixtiyar...

Əqdi dörd ilə bağlasalar da,

Kərəmli üç ili tutdu hesabda.

Aylıq məvacibi üç yüz qızıl pul,

Əgər sonunda iş olsa qəbul,

Zəhmət haqqını tam alacaqdı,

Haqq-hesab Üsuli-Şərq olacaqdı.

Hər iş yüz ölçülüb, bir yol biçildi,

Mənzil Annagilin evi seçildi.

Knyaz bütün xərci boynuna aldı.

Annanın atası narazı qaldı.

Əlişi qorumaq məsələsində,

Knyaz istəmirdi güzəştə gedə.

Yeddi seçmə əsgər verdi Əlişə,

Əlişsə güvəndi təkcə Buliçə.

Elə ki, hər işə aydınlıq gəldi,

Kərəmli "Qurana" and içib dedi:

-"Kərəmli Qalası inci olacaq,

Bu şəhri min illər o qoruyacaq"…

### *DÖRDÜNCÜ FƏSİL*

### KƏRƏMLİ QALASININ TİKİNTİSİ

Bütün vacibləri salıb sahmana,

Kərəmli yerləşdi öz otağına.

Knyazın bacısı eviydi bura,

Əri Bobrokov da sahib onura.

Annayla otağı eyni qatdaydı,

Kərəmli bu haldan ehtiyatdaydı.

Elə birinci gün duymuşdu bunu,

Anna gizlin-gizlin seyr edir onu...

Bu işi almayıb elə ciddiyə,

Kərəmli yollandı tez tikintiyə.

Bütün işçiləri tək-tək o seçdi,

Min ölçdü, yüz ölçdü, bircə yol biçdi...

Bütün işçilərlə eylədi söhbət,

İşin mükafatı olacaq əlbət.

Bahar bayramını qeyd etdi Əliş,

Annanı heyrətə salmışdı bu iş...

Anna çox cavandı, qızı yerində,

Süzərdi Əlişi heyrət içində...

Tikinti işləri tamam hazırdı,

Sadəcə ilk daşı qoymaq qalırdı,

Bahar bayramından dörd gün keçəndə,

Knyazın özünün dediyi gündə.

Blaqoveşeniye, 25 –i mart,

Bütün şəhər əhli tamam qaldı mat...

Müsəlman Kərəmli kilsəyə getdi,

Məryəm Anaya dualar etdi...

O da hamı kimi şam yandırmışdı,

İsa Məsihdən söhbət açmışdı.

Kilsədən gəldilər qala yerinə,

Knyaz təməl daşın qoydu yerinə.

Yepiskop "İncil"-dən oxudu bir az,

Kərəmli "Quran"-dan ucaltdı avaz...

Belə xeyir-dua söylədi hamı,

Yaradan bol etsin işdə ilhamı...

## *BEŞİNCİ FƏSİL*

## ƏLİŞ VƏ ANNA

İşlər vüsət alıb, lap qızışmışdı,

Kərəmlinin  başı bərk qarışmışdı...

Süfrədə, dəhlizdə, iş otağında,

Bir cüt göz gəzirdi daim yanında...

Anna gözlərini çəkmirdi ondan,

Baxmaq istəyirdi elə yaxından...

Hərdən baxışları toqquşan zaman,

Əliş lap çaşırdı utandığından...

Qırx beşin içində olsa da hələ,

Saçından bir tük də verməyib yelə.

Zil qara saçları, şəvə bığ-saqqal,

Boy-buxun yerində, sifəti xoşhal.

Zirəklik, çeviklik işdə məharət,

Annanı büsbütün eyləmişdi məst...

Aşkarda, gizlində olmuşdu kölgə,

Son vaxtlar Kərəmli gəlmişdi təngə...

Bilmirdi nə etsin, nədədi çözüm,

Bitmişdi canında ta taqət, dözüm...

Kərəmli gülərüz, mehriban idi,

Bu halı Annaya ümid verirdi...

Cavabsız olsa da eşqi Annanın,

Köləsi olmuşdu artıq qalanın...

Hər gün Kərəmlinin yanında idi,

Sanki, ruhu onun canında idi...

Əliş də qaladan söhbət edərdi,

“Kərəmli Qalası” yekdir deyərdi...

Əliş danışdıqca baxardı Anna,

Onun gözlərində axardı Anna...

Beləcə günləri çatıb baş-başa,

Sonunda işləri vurdular başa...

### *ALTINCI FƏSİL*

## KƏRƏMLİ QALASI HAZIRDIR

Qala hazır oldu, gəldi münsiflər,

Hamı alqış dedi, var olsun əllər...

Gizlədə bilmirdi heç kim heyrətin,

“Kərəmli” incidir, tayı yox, çətin...

Knyaz alqışları qəbul eylədi,

Hamı çox sevindi, bayram eylədi...

### *YEDDİNCİ FƏSİL*

## BÖYÜK KNYAZIN HİYLƏSİ

Ya orda, bəlkə də ondan çox əvvəl,

Knyazın vədini daladı zaval...

Şübhə toxumları düşdü qəlbinə,

Qorxdu tay tikilə onun “Kremli”-nə...

Düşünüb, daşınıb verdi qərarı,

Dedi: - "Sabah yola, salaq memarı"

Tapşırdı bir gözəl məclis qurulsun,

Sonunda memarın boynu vurulsun...

## *SƏKKİZİNCİ FƏSİL*

## QANLI ZİYAFƏT

Miladın 1371-iydi,

Məclis İyunun 22-siydi...

Hamı təriflədi, dedi sağlıqlar,

Məclisdə qalmadı daha sayıqlar...

Əliş müsəlmandı içmirdi şərab,

Annanın baxışı verirdi əzab...

Məclis sona çatdı dikəldi Knyaz,

Hesab tam ödəndi nə çox, nə də az...

Anna da göz yaşı tökdü nə qədər,

Knyaz sağollaşıb gedənə qədər.

Annanın anası yaxına gəldi,

Əlişlə yaşıddı, ya az böyükdü.

Yolun açıq olsun, salamat yaşa,

Annamın ilk eşqi toxunub daşa...

Bəlkə getməyəsən, qalasan burda,

Anna sənə baxıb özün ovuda...

Son vaxtlar Əliş də düşmüşdü tora,

Şeytana lənətlə çatmışdı bura...

Yenə də bir lənət dedi şeytana,

Bu vaxt dəli kazak girdi meydana...

Qılıncı siyirib çapdı arxadan,

Var güclə bir nərə çəkdi ataman...

Əlişin bədəndən ayrıldı başı,

Annanın durmadı bir an göz yaşı...

Hər şey elə ani, qəfil oldu ki,

Əlişin özü də olmuşdu iki...

Biri başsız bədən qalmışdı yerdə,

Biri bədənsiz baş uçurdu göydə...

Sərxoş, sərsəm kazak xurcun eşirdi,

Anna saçın yolub, şivən edirdi...

Havadan asılı qalmışdı Əliş,

Elə bil Annanı indicə görmüş...

İstədi Annanı sakit eləsin,

Getmirəm, qalıram, burdayam desin...

Heyhat, kim eşidər tay onun səsin,

Elə bir yerdədir gedər, gəlməzsin...

Nəhayət anladı bunu Kərəmli,

İndi çox uzaqdan gördü "Kremli"...

## *DOQQUZUNCU FƏSİL*

## ANNA SƏDAQƏTİ

Anna saçın yolub, edirdi şivən,

Əliş çalışırdı tutsun əlindən...

Əlindən tuturdu duymurdu Anna,

Üzündən öpürdü görmürdü Anna...

Talada hay-həşir qopmuşdu yaman,

Yox idi Əlişi bir kimsə duyan...

Talandı karvanı, soyuldu nəşi,

Belə naqisliyin olmayıb eşi...

Knyaz da qayıtdı, sanki, xəbərsiz,

Əliş dəfn olundu, qüsul-kəfənsiz..

Anna saçın yolub verdi yellərə,

Getdi ibadətə qürbət ellərə...

Məzarı başına gələrək hərdən,

Hədiyyə gətirdi güldən, çiçəkdən...

Uzun zaman oldu çəkdilər həsrət,

Bir-birin duymayıb etdilər söhbət...

Vüsal da var imiş demə qismətdə,

Bir gün anlaşdılar qəfil söhbətdə...

Hər dəfə Annaya yazıq deyənlər,

Cansız bədənini yolda gördülər...

Moskva-Smolensk, 9-cu verst,

Yolun kənarında bitmişdi həyat...

O vaxt ki, Kərəmli duymuşdu onu,

Həyatın onunçün çatmışdı sonu...

İndi həmin yerdə hər il qumrular,

İyunda, iyulda nəğmə oxurlar...

## KAMİLLİK

Yaradan ağılı verib bərabər,

Kamillik axtaran zəka cücərdər.

Dərsi başqasının səhvindən alan,

İnsanlar içində ən kamil olan.

Belə söyləmişdir sevimli müdrik,

Təcrübə bir daraq, kəlsək, neynirik...

“Rəbbi zədni ilmən “-deyən dillərə,

Xoş ətir, rahiyə yayan güllərə,

Ey uca Yaradan yardım et hər dəm,

Adın duamızda yaşasın müdəm...

## HƏQİQƏT

Yaşamın mənası, qayəsi təkdir,

Bizə məlum olan həqiqət yekdir.

Kəşf etmək, olanı tapmaq deməkdir.

Tapmaq, var olana yetmək deməkdir...

Təsadüf istəklə görüş anıdır,

Zərurət arzunun qol-qanadıdır...

Qəza da, qədər də bizimlə yaşar,

Taledən istəyən, qismətdən alar...

Ustac bu sözləri demir boşuna,

Baxmayın heç onun cavan yaşına...

Bir bilsən ruhunun kim olub dostu,

Bu üzdən başının tacı da usdu...

## NƏSİHƏTNAMƏ

İşin heç çətini, asanı yoxdu,

Qəlbi saf olanın gözü də toxdu.

Bir “Ol” – a bağlısa, dünya da nə var,

Bir düşün çətinlik bəs nədə olar?

Uca Yaradanın güçü sınırsız,

Nəyi istəyirsiz, onu alırsız...

Həyat dediyinin düsturu budu,

Nə istəyirsən, aldığın odu...

Məqsəd aydın olsun, niyyət də təmiz,

Zəhmətin bəhrəsin görəcəksiniz...

## MÜNACAT VƏ SON

Zaurun əlləri boşda qalmadı,

Arzusu qələmdə güldü, ağladı...

Uslu-uslu neçə dastan bağladı,

Razıdır, min şükür Yaradan haqdı...

Ustac babalardan alıb mirası,

Sevən seviləcək, olmayın ası...

Təvəqqem şükr edin, eyləyin alqış,

Arzu, istəyiniz olmasın qarğış...

Cəlal sahibinə sığının hər an,

Məqama güvən yox heç vaxt, heç zaman...

## ZAMAN VƏ MƏKAN

Uca Yaradanın verdiyi güclə,

Qəlbimdə açdığı cığırla, izlə...

Zaman qeyd olundu əlbət, Miladi.

Məkan Bakı şəhri  qeyri-iradi.

7-si iyunda, axşam 7-də,

2018 olundu siftə...

Girişdən birinci fəsilə kimi,

Hamısı yazıldı elə o günü...

Sonra ötən günlər naz etdi qələm,

Oturub gözlədim nə edə billəm?

Bir də 20-si axşam 7-də,

Qələm felə keçdi, mən də bihudə...

Fəsillər də bitdi, gəldik buracan,

Qaldı bir şükranlıq, bir zaman, məkan.

2018 Miladi ilə,

21-i iyun Sübh azanıyla,

Qələm də ayrıldı həmən kağızdan,

Şükür, həmdü-səna qopdu ağızdan...

21-i iyun doğmuşdu Günəş,

Qələmin canında yeni bir atəş...

İndi bu sözləri vərəğə yazır,

Cism bu masada, ruh yolun azır...

Yeddi yüz əvvəlin bu çağlarında,

Moskva yolunda, yol qırağında...

Bitmiş bir ömürün dastanın yazır,

Bitmişdir bu əsər, artıq tam hazır...

## ŞÜKRANLIQ

Min şükür Yaradan, şükür hikmətə,

Başladıq, son verdik qəmli söhbətə...

Əlişin, Annanın ruhu şad olsun,

Oxuyub, dinləyən payidar olsun...

**Qeyd:**

**Poema görkəmli Azərbaycan memarı Əliş Kərəmlinin 700 illik yubileyi münasibətilə həyata keçirilən “Kərəmli -700” layihəsi çərçivəsində qələmə alınmışdır. Ruhu şad olsun. Amin.**



## ƏLİŞ KƏRƏMLİ HAQQINDA

***Əliş bəy Sübhan oğlu Kərəmli (Kərimli) – Sirvani (onu avropada və rusiyada Şamaxılı Alis kimi də tanıyırlar)* 21 aprel 1322 *– ci ildə Şamaxıda anadan olubş Hal-hazırda Qobustan rayonu Ərəbşalbaş kəndində yaşayan tanınmış Kərimlilər nəslindəndir.***
nun son işi dünyaca məşhur, gözəlliyin və möhkəmliyin vəhdət tapdığı, çərqlə qərbin qovuşduğu Moskva Kremlidir. (Kərəmli qalası - bürcü)  22 iyun 1371 ci ildə xəyanət – alçaqcasına sui-qəsd nəticəsində Moskva yaxınlığında öldürülmüşdür. Şamaxıda dəqiq bilinən günümüzədək qalıqları gəlib çatan işi şəhərin girişindəki köhnə körpüdür. (Bu məlumatı sonuncu dəfə 2017 -ci ilin yayında 83 yaşlı Şamaxı sakini tarixin demək olar ki, bütün çağları barədə zəngin məlumatlı  Balayev Qulu baba böyük əminliklə təsdiq etmişdir.)



*Murad MƏMMƏDOV*

**QADIN**
Qadın ruha yaraşıq
Ömrümüzün yarısı.
Sevgisiylə qarışıq
Həm xanımı, qarısı.
* * *
O, dünya yaranandan
Sevgi dolu sonadır.
Biz asılıyıq ondan
Çünki qadın Anadır.
* * *
Qadın həyatın gözü
Aldığımız nəfəsdir.
Həm söhbəti həm sözü
Sevgiylə dolu kəsdir.
* * *
Bu dünya gül qoxuyar
Ətir saçar onunla.
Sevgiylə can toxuyar
Qürur duyar bununla.
* * *

Qadın övlad anası
Hamımızın canıdır.
Bütün bəşəriyyətin
Üzüdür, ad sanıdır.
* * *
Başımızın tacıdır
Həyası, ismətiylə.
Qadın ana, bacıdır
Gözəldir qismətiylə.
* * *
O, dünyanın bəzəyi
İnsanlığın yaşıdır.
Sevgimizin özəyi
Onun məhək daşıdır.

**DEMƏYİN**
Heç kimə, ay yetim, deməyin dostlar,
Hamımız insanıq, kimsə baş deyil.
Bu sözdə təənə var, daha nələr var,
Açıb ağartmaq da mənə xoş deyil.
* * *
Qismətdən, yazıdan qaçan olmayıb,
Bu dünya yazılı kitaba bənzər.
Bağlanmış bir bəxti açan olmayıb,
Hər kəs öz bəxtini soraqlar, gəzər.
* * *
Kimsəyə yetimdir, söyləyib durma,
Onun da hifz edən Allahı vardır.
Gəl ürək sındırma, gəl könül qırma,
Düşünmə ki, ona bu dünya dardır.
* * *
Heç kəsin taleyi əlində deyil,
Kimsəyə lağ edib, sındırma onu.
Çalış bu kəlməni yaddaşından sil,

Çünki könül qırmaq dünyanın sonu.
* * *
Bu söz yoxa çıxsa dildən, ağızdan,
Hər kəs öz adıyla öyünər məncə.
Bu adın əsiri oğuldan, qızdan,
Dünya xeyir görər hər şeydən öncə.

**BELƏDİR**
İnsan robot deyil ki,
Həmişə düz işləsin.
Sadə məntiq deyir ki,
Səhvi olur hər kəsin.
* * *
Bu səhvlərin içində
İtib-batan çox olar.
Hamısı bir biçimdə,
Olmur, çaşan yox olar.
* * *
Çalışırıq hamıda
Qüsur tapaq, səhv tutaq.
Ağzımızda tamı da
Az qalır ki, unudaq.
* * *
Bu dünyanın gərdişi
Bizi maraqlandırmaz.
Bir insanın səhv işi
Qəti bizi yandırmaz.
* * *
Acımasa xəmiri,
Küt gedəcək kündələr.
Yola verər ömürü,
Saf, əlacsız bəndələr.
* * *
Ağıllı baş seçilər,

Düz əməli, işiylə.
Yaşandıqca kiçilər
Dərd, ağıllı kişiylə.
* * *
Bu dünya hamı üçün
Gör-götür dünyasıdı.
Baxın, yaşayın, keçin,
Həyat ömrün yasıdı.

**ŞEİR**
*(Bir şeir kitabını oxuduqdan sonra…1982ci il.)*
Şeirə meyl eləyin, şeir oxuyun,
Sevinclə, kədərlə dost olmaq üçün.
Şeirə meyl eləyin, şeir oxuyun,
Şeir dünyasından zövq almaq üçün.
* * *
Mənimçün şeirdir, hər açılan gül,
Mənimçün şeirdir, oxuyan bülbül.
Mənimçün şeirdir, o şehli çəmən,
Şeirdir mənimçün o ağ yasəmən.
* * *
Mənimçün şeirdir, gördüyüm gözəl,
Şeirdir mənimçün tökülən xəzəl.
Mənimçün şeirdir, payızın sonu,
Yazda göz oxşayan nərgizin donu.
* * *
Şeirdir həyatım, şeirdir canım,
Şeirsiz keçməyir vaxtım, zamanım.
Deyirəm a dostlar, şeir oxuyun,
Duyun, duyğulanın, çələng toxuyun.
* * *
Şeirdir mənimçün var da, dövlət də
Şeirdir sevinc də, qəm də, nifrət də.

Şeirdir həmişə, hər an, hər zaman
Mənimçün edilən quru hörmət də.

**İLK MƏHƏBBƏTİM**

Burnumun ucu da göynəyir indi,
Yadıma düşəndə ilk məhəbbətim.
Xəyala daldıqca, hisslərim dindi,
Yadıma düşəndə ilk məhəbbətim.
* * *
Nə yaman olurmuş acı dərd kimi,
Yandırır içimi, didir qurd kimi,
Ağlımdan çıxmayır köhnə yurd kimi,
Yadıma düşəndə ilk məhəbbətim.
* * *
Boylanır xəyalım geriyə nədən?!
Beynim açılmayır, sızlayır bədən.
Qurtula bilmirəm qəmdən, qüssədən,
Yadıma düşəndə ilk məhəbbətim.
* * *
Arzular danışır, ruhum dinməyir,
Xəyalım göylərdən bir an enməyir.
Eşqimin alovu, odu sönməyir,
Yadıma düşəndə ilk məhəbbətim.
* * *
Taleyin gərdişi sərt oldu niyə?!
Mən naza dözmədim, aldandım küyə.
Qocalıq istədi qəddimi əyə,
Mənə dayaq oldu ilk məhəbbətim,
Heyif ki, tez soldu ilk məhəbbətim.

**SƏNSİZ**

Kövrək arzularım kül oldu demək,
Sən məndən ayrılıb gedəndə, sənsiz.
Quruyan ağacın yarpaqları tək,

Titrədi ruhum da bədəndə, sənsiz.
* * *
Dünya qaranlığa büründü sanki,
Nə günəşi gördüm, nə ayı gördüm.
Mən səni itirdim, sənsiz inan ki,
Nə qışla yaşadım, nə yayı gördüm.
* * *
Alın yazısına mən inananam,
Bu bəxtə, taleyə nə deyim ki, mən?
Mən nə birinciyəm, nə son yananam,
Bu ülvi diləklər puç oldu nədən?!
* * *
Mənim taleyimdə qara bir yazı,
Mənim varlığımda vuran ürəksən.
Bu soyuq bədənin qarı, ayazı,
Bu isti könlümün ocağı sənsən.
* * *
Niyə, taleyimiz barışmadı ki,
Nə günah işlətdik, ay mənim gülüm?!
Nə doğma, nə yaxın qaışmadı ki,
Bir şey bilirsənsə, de mən də bilim.
* * *
İstərəm yuxuma girəsən mənim,
Dərdini eşidəm, ona tən olam.
Röyada olsa da könül həmdəmim,
Sirdaşım olasan, yarın mən olam.
* * *
Dərdimiz dərdlərə oxşayan deyil,
Ki, açaq danışaq dərd bilənlərə.
Nə məni yalvartma, nə də sən əyil,
Bir də fikir vermə deyilənlərə!
* * *
Əllərim aşkarda toxunmasa da,
Ruhumuz yuxuda tox olsun dedim.

Bir sevgi nəğməsi oxunmasa da,
Bu hicran, bu nisgil yox olsun dedim.
* * *
Dərd dərdi gətirər, kədər kədəri,
Arzun istəyinlə tən olmayanda.
Sevgi, məhəbbətin olmaz təpəri,
Əzizim, gözündə yaş olmayanda.

**ETİRAF**
Günahkar mən oldum, indi anladım,
Dərdimiz bölünməz, ortaq olsa da.
Nə məndən incidin, nə də danladın,
Bu səhv ömrümüzə bir dağ olsa da.
* * *
Sənsizlik ay gülüm, ağrı-acıdır,
Dərd içində azmaq yaşamaq deyil.
Məhəbbət həyatın ehtiyacıdır,
İynəylə gor qazmaq yaşamaq deyil.
* * *
Bu da bir talehdir yaşayırıq biz,
Sən məndən aralı, bu hicran bitmir.
Çilik- çilik oldu o saf eşqimiz,
Nə olsun, ağrısı canımdan getmir.
* * *
Heç zaman dayanmaz, sildikcə gələr,
Göz yaşı torpağa qarışarmı heç?
Vüsala yetməyən nakam sevgilər,
Görən o dünyada barışarmı heç?

**…SƏN ALLAH!**
Üzü qarsıyan odam,
Məni unut, sən Allah!
Daha naməhrəm, yadam,
Məni unut, sən Allah!

* * *
Çarxı dönmüş bir oxam,
Dərdə doymuş bir toxam,
Elə bil ki, heç yoxam,
Məni unut, sən Allah!
* * *
Nə pəncəm, nə də şeşəm,
Çarəsiz, acı şişəm,
Dərd əkmək olub peşəm,
Məni unut, sən Allah!
* * *
Gölə sığmayan sona,
Tərsə toxunmuş xana,
Cibi sovrulmuş xanam,
Məni unut, sən Allah!
* * *
Dərdə bələnmiş halam,
Sonu bilinməz yolam,
Vallah, yiyəsiz qulam,
Məni unut, sən Allah!

**QALDI**
İlk sevgim, ilk eşqim, arzum, istəyim,
O kənddə gül açdı, o kənddə qaldı.
Necə unut deyim, necə bəs deyim,
O ülvi hisslərə?! Kəmənddə qaldı.
* * *
Ürəyə dərd oldu, ömrə bir işıq,
O, mənə ruh verdi, ruha yaraşıq,
Lal oldum dinmədim, o, mənə aşiq,
Bu saf duyğularım rübənddə qaldı.
* * *
Bu həsrət, bu hicran bitməz, can alar,
Bu sevgi başımdan getməz, hey qalar,

Eşqiylə,sevgiylə dolu misralar
Heyif dil açmadı, lal bənddə qaldı.

**İNCƏDƏ SEVDİM SƏNİ**
Saçlarım ağarsa da
Ruhum sevginlə yatır.
Neyləyim ki, yaşımız
Tam altımışa çatır.
Xəyallar məni qoymur
Rahat dincələm, duram.
Köhnə sevda dərd olub
Sağalmayır ki yaram.
O bəxtəvər günlərim
Bir də taparmı məni?!
İncədə sevdim səni.
* * *
Taleh bizi oyuna
Gör harda saldı getdi.
Eh, nələrlə aldatdı
Ağlımı aldı getdi.
Bizim arzu-kamımız
Alışdı külə döndü.
Tərtəmiz saf duyğular
Kükrədi, selə döndü.
Hikkəmiz dağıdardı
Sisi ,dumanı, çəni.
İncədə sevdim səni.
* * *
Zamanın yaddaşından
Heç nəyi silmək olmur.
Bu da alın yazısı
Nə deyim, bilmək olmur.
Bizim məhəbbətimiz
Ürəkdə qaldı getdi.

Qışda açan gül kimi
Soyuqdan soldu getdi.
Nə olsun ki, bu sevda
Çəkdi bizə sitəmi.
İncədə sevdim səni.
* * *
Göz dəymiş sevdaların
Sonu olmurmuş, gülüm.
Bəslənən arzuların
Gülü solmurmuş, gülüm.
Onda nə oldu bizə?!
Gül açmadı sevdamız.
İnan, səni bilmirəm
Namuraz qoydu məni.
İncədə sevdim səni.
* * *
Sevdadan alışanın
Külü çətin soyuya.
İçini dərd yandırar,
Çölü çətin soyuya.
Yandırdı, alışdırdı,
Od vurdu ömrümüzə.
Nə çəkdirdi biləsən
Bu acı sevda bizə.
Əlifmizi çaşdırdı,
Unutdurdu qibləni.
İncədə sevdim səni.

**HEÇ VAXT…**
*(Ömür-gün yoldaşıma 50 yaşında)*
Ömrün yollarında qoşa şam kimi,
Əridik, əridik, sönmədik heç vaxt.
Taleyin dolanbac dolaylarında,
Qabağa boylandıq, dönmədik heç vaxt.

* * *
Vaxtın gərdişinə boyun əyəndə,
Küsmədik bir nimdaş paltar geyəndə,
Yusif dil açanda, baba deyəndə
Baxıb köks ötürdük, dinmədik heç vaxt.
* * *
Bəzən xətirlərə dəyən söz olduq,
Bəzən əyri olduq, bəzən düz olduq,
Amma ömrü boyu qoşa göz olduq,
Sevgi zirvəsindən enmədik heç vaxt.

**ƏZİZİM**
Sevdimsə, sevgimdə məcnun olmadım,
Adını qəlbimə yazdım, əzizim!
Düşündüm, daşındım, çarə bulmadım,
Nə oldu qismətə yozdum, əzizim!
* * *
Həsrətin odunda, közündə bişdim,
Gah mum tək əridim, gah şan tək şişdim,
Səndən ayrılanda nə günə düşdüm?!
Əlimi dünyadan üzdüm, əzizim!
* * *
Yığvala kor dedim, əsəbdən coşdum,
Özüm də bilmədim, həddimi aşdım,
Fikirdən, kədərdən əlfimi çaşdım,
Dərddən gen dünyada azdım, əzizim!
* * *
Bir səhər yuxudan tezdən oyandım
Duyğular içində alışdım, yandım.
Allaha yalvardım, burda dayandım,
Yaşadım, ölmədim, dözdüm, əzizim!
* * *
Həyat dərslərini bitirməmişdim,
Dünyadan payımı götürməmişdim,

Kələfin ucunu itirməmişdim,
Tutdum bir ucundan çözdüm, əzizim!

**DEYİL**

Onsuz da ürəyim boşdur, əzizim,
Sənə unut deyən ürəyim deyil.
Səninlə hər əzab xoşdur, əzizim.
Sənsiz cənnət belə gərəyim deyil.
* * *
Aybaay, ilbəil ömürdür gedən,
Sağalmaz inaddır məni xar edən,
Hər şeyin tamını unutmuşam mən,
Təkcə zəhər olan çörəyim deyil.
* * *
Hər üzdə min sifət, surət gördükcə,
Min cürə sarsıntı, heyrət gördükcə,
O qədər zərbələr aldım ki, təkcə,
Daş-qalaq edilən kürəyim deyil.
* * *
Əhvalım dəyişir ruzigar kimi,
Gah donur, əriyir soyuq qar kimi,
Sən yoxsan, həyatım tarımar kimi,
Çürüyən, laxlayan dirəyim deyil.

**ƏZİZİM**

Sevgidir məlhəmi sevən ürəyin,
Sevmirsə, o ürək daşdı, əzizim.
Ayrılıq bir dərddi, heç vaxt gərəyin
Olmasın, gözlərdə yaşdı , əzizim.
* * *
Ürək geniş olsa, yerin dar olmaz,
Sevən könüllərdə dərd, azar olmaz,
Gözü oynayandan sənə yar olmaz,
Məhəbbət ağılla xoşdu ,əzizim.

* * *

Hər yaşın sevgisi ruha dayaqdı,
Yüz insan seyr edir,baxma, oyaqdı,
Bir qoca kiminsə gözünə baxdı,
Dalınca dedilər çaşdı, əzizim.
* * *
Məhəbbət yandıran alovlu yoldu,
Neçəsi alışdı, yarıda qaldı,
Kimi dəli etdi, çöllərə saldı,
Dedilər həddini aşdı, əzizim.
* * *
Neçə canda neçə sevgi boğular,
Qocalarıq, eşq, məhəbbət soğular,
Sevgi də beyində, başda doğular,
İnsanı var edən başdı, əzizim.
* * *
Ay Murad, ayıq ol, yuxudan oyan,
Naşıdı dünyanın malına uyan,
Eşqdən xumarlanıb iyini duyan,
Ləzzət alan gözlə qaşdı, əzizim.

**QİSMƏTİM**

Sevdiyim qız qismətimdə yox imiş,
Qismətdə olanın oduna yandım.
Sevən qəlbin dərd, azarı çox imiş,
Anlamadım, əzabını boş sandım.
* * *
Ömür boyu suçlu bildim özümü,
Günahımı heç cür yuya bilmədim.
Yaşamağa Tanrı verdi dözümü,
Zövq aldım həyatdan dözdüm, ölmədim.
* * *
Üç övlad böyütdüm, başım qarışdı,
Onların gülüşü ovutdu məni.

Nifrətə məsafə bircə qarışdı,
Sevdi, əzizlədi o, tutdu məni.
* * *
Geriyə baxıram acı xatirə,
Hər gün başa qaxınc, minnət yeyirəm.
Yadıma salıram azı min kərə,
Yenə də bu günə şükür deyirəm.
* * *
Ömür paltar deyil, fərqli geyəsən,
Dəyişəsən görkəmini, cildini.
Bu qismət mənimdi, mənim! Deyəsən,
Yazılana çarə yoxdu! Bildimi?!

**DEYİRLƏR…**
Deyirlər ki, zaman dərdə məlhəmdir,
Vaxt gəlir sağaldır yaralarını.
İlk eşqin yarası sanki ödəmdir,
Sağalmır! İncitmir haralarını?!
* * *
İllərlə duymadım səni kar kimi,
Sən ondan soruşdun, mən də birindəən.
Üz-üzə gələndə günahkar kimi,
Baxıb köks ötürdün mənə dərindən.
* * *
Nə sən o deyilsən, nə mən o dəli,
Nə də ömrümüzün cavan çağıdır.
Mən sənin yanında gözü kölgəli,
Səninsə rəftarın ürək dağıdır.
* * *
Artıq baxışın da dəyişib tamam,
Elə bil tənhasan, elə bil təksən.
Mən həmin insanam, həmin adamam,
Sənsə qolubağlı ürkək mələksən.
* * *

Bu taleh alın yazımdır deyə,
Məni göynədəcək ölənə kimi.
İlahi qoymadı bir olaq niyə,
Mən səni tanıyıb bilənə kimi.
* * *
Əzab ömrümüzə biçilən paltar,
Yol yox, bu libasa alışmalıyıq.
Günahkar mənəmmi? Bəyəm fərqi var?!
Bir yerdə bu suçla barışmalıyıq.




**Murad Məmmədov**un **“Ömrün payız duyğuları”** adlı yeni şeirlər kitabı işıq üzü görüb. Bu münasibətlə şairi təbrik eirik.




YAZARLAR.AZ

## "YAZARLAR" FOTO QALEREYA, JURNAL PDF

I>>>> ***"Yazarlar" foto qalereya*** rubrikasında hər yeni ayın buraxılışında ötən ay baş tutmuş tədbirlərdən fotolar yayımlanacaq. Rubrikadan texniki redaktor Tuncay Şəhrili məsuldur.

**ELAN**

"Yazarlar" jurnalının (may 2023 – may 2024) ***"Qononarlı yazı"*** rubrikası fəaliyyətə başlayıb. Məqalələr YAZARLAR.AZ saytında və may sayından etibarən jurnalda dərc olunacaq. İzləyin.

**"YAZARLAR" FOTO QALEREYA, JURNALI PDF**




**Zaur Ustac Əliş Kərəmlinin portretini Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadəyə təqdimedərkən.** *50 X 74 ölçülü (passport nömrəsi: K700PƏbK2N002)* **28.09.2020. Bakı.**

**HAZIRLADI: TUNCAY ŞƏHRİLİ**



21 aprel Əliş Kərimlinin doğum günüdür. Anadan olduğu gündə görkəmli memarı rəhmətlə anırıq. Allah rəhmət eləsin, ruhu şad olsun. Amin. (Rəssam: Sehran Allahverdi )

**QEYDLƏR**




**PDF>>>ZAUR USTAC UŞAQ ŞEİRLƏRİ**
**PDF: >>>>> ZAUR USTAC "QƏLƏMDAR-2"**
**PDF>>> ZAUR USTAC "BB" KİTABI**
**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**
**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**
**"YAZARLAR" JURNALI PDF**
**YAZARLAR.AZ**
==================================================

**<<<<<< WWW.USTAC.AZ və WWW.BİTİK.AZ >>>>>>**

*Əlaqə:* Tel: (+994) 70-390-39-93 E-mail: zauryazar@mail.ru

**“TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!”**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

“Yazarlar”ın redaksiyasında yığılıb səhifələnir,
“El kitab çapı” mərkəzində çap olunur.
Çapa imzalanıb: 01.04.2023
Sifariş: №:27
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.